RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 283 (9450) 26 DEKABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər



## Ağdam möhtəşəm quruculuq meydanıdır

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışında iştirak ediblər, Ağdam şəhərində dördüncü və beşinci yaşayış komplekslərinin, Ağdam şəhər Mərkəzi parkının, Ağdamın Qiyaslı, Salahlı Kəngərli və Baş Qərvənd kəndlərinin təməlini qoyublar, eləcə də Ağdamda "İmarət" Kompleksində aparılan təmir-bərpa və Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanış olublar, Xaçınçay su anbarını təmir-bərpadan sonra və uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolunu istifadəyə veriblər.

2-5

## Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri hərtərəfli inkişaf edəcək



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Türkiyə Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliyini ifadə edib, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, Əziz Qardaşım.

Doğum gününüzü xalqım adından və şəxsən öz adımdan səmimi diləklərimlə təbrik edir, ailənizlə birlikdə Sizə cansağlığı və xoşbəxtlik dolu uzun ömür arzulayıram.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi nailiyyətlər və beynəlxalq miqyasda get-gedə artan nüfuzu bizim üçün iftixarverici hadisədir.

Türkiyə ilə Azərbaycan arasında "İki dövlət, bir millət" şüarına əsaslanan bənzərsiz qardaşlıq və həmrəylik telləri bu günə qədər olduğu kimi, gələcəkdə də münasibətlərimiz baxımından güclü bünövrə təşkil etməyə davam edəcək.

Dəyərli Qardaşım, bu fürsətdən istifadə edərək doğum gününüzü bir daha təbrik edir, Azərbaycan xalqının xoş günləri və rifahı üçün ən səmimi arzularımı ifadə edirəm.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***




## Yüksək səviyyədə keçirilən mütəmadi görüşlər əməkdaşlığın genişlənməsinə töhfə verir

Dekabrın 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şavkat Mirziyoyev dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Dövlət başçıları Azərbaycan ilə Özbəkistan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, yüksək səviyyədə keçirilən mütəmadi görüşlərin və təmasların əməkdaşlığımızın genişlənməsinə töhfə verdiyini qeyd ediblər.



Prezident İlham Əliyev COP29-un gələn il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar münasibətilə Özbəkistan Prezidentinin göndərdiyi təbrik məktubuna görə bir daha təşəkkürünü bildirib.

Öz növbəsində Özbəkistan Prezidenti bu münasibətlə dövlətimizin başçısını bir daha təbrik edərək, bunu Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsinin və ölkəmizə göstərilən hörmətin təzahürü kimi dəyərləndirib.

Telefon söhbəti zamanı əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub, gələn il yeni təmaslar barədə danışılıb.

***Prezidentin Mətbuat Xidməti***

## İkitərəfli dostluq münasibətləri bundan sonra da genişlənəcək



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Vladimir Putin Azərbaycan Prezidentini ad günü münasibətilə təbrik edib, prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli dostluq münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

Dövlət başçıları ikitərəfli münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Əldə edilmiş bütün razılaşmalar uğurla icra olunur



Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Kasım-Jomart Tokayev dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan və Qazaxıstan prezidentləri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıblar.

Telefon söhbətində bu ilin noyabrında SPECA-nın Bakıda keçirilmiş Zirvə toplantısı zamanı Azərbaycan və Qazaxıstan dövlət başçıları arasında keçirilən görüşdə əldə edilmiş bütün razılaşmaların uğurla icra olunduğu qeyd edilib, gələn il Qazaxıstan Prezidentinin Azərbaycana həyata keçiriləcək dövlət səfərinin əlaqələrimizin hərtərəfli inkişafına təkan verəcəyinə əminlik bildirilib.

***Prezidentin Mətbuat Xidməti***

## Münasibətlərin uğurlu inkişafı məmnunluq doğurur



Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Aleksandr Lukaşenko dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, dövlətçilik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan və Belarus prezidentləri ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin uğurlu inkişafından məmnunluqlarını bildirib, gələcəkdə əlaqələrimizin daha da genişlənəcəyinə əminliklərini ifadə ediblər.

Telefon söhbəti zamanı dövlət başçıları əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

# Ağdam möhtəşəm quruculuq meydanıdır

## "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər.**





AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Ağdam rayonunun Xocalı rayonu ilə sərhədində yerləşən Şelli kəndi ərazisində "AzərEnerji" tərəfindən 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyası inşa edilib. "Ağdam" qovşaq yarımstansiyasına "Ağdam-1" yarımstansiyasından 10 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq ötürmə xətti və bu xəttin üstündəki ildırımötürücü trosun içində 24 damarlı fiberoptik kabel xətti çəkilib.

Qeyd olunub ki, bu yarımstansiyanın Ağdamın Xocalı ilə sərhədində tikilməsinin xüsusi əhəmiyyəti vardır. Yəni "Ağdam" qovşaq yarımstansiyası rayonun bəzi kəndləri ilə yanaşı, əsasən Xocalı, Əsgəran, Xocavənd, Ağdərə və Xankəndini ölkə enerjisisteminə qoşmaqla bərabər, həmçinin ehtiyat qida mənbəyi kimi regionun enerji təchizatında etibarlılığı təmin edir. Bunun üçün yarımstansiyada ehtiyat yuvalar da quraşdırılmışdı. Regionda suverenliyimiz bərpa olunduğundan yaxın vaxtlarda "Ağdam" qovşaq yarımstansiyasından Xankəndiyə 110 kilovoltluq ötürmə xətti çəkilərək 110/35/10 kilovoltluq "Şuşa" və "Füzuli" yarımstansiyaları ilə əlaqələndiriləcək. Bununla da ikitərəfli elektrik təchizatına nail olunacaq. Eyni zamanda Xocalı, Əsgəran və digər kənd və qəsəbələrin 35 kV-luq elektrik təchizatı da "Ağdam" qovşaq yarımstansiyasından təmin ediləcək.

"Ağdam" qovşaq yarımstansiyasında 110 kV-luq açıq paylayıcı qurğu yaradılıb və açarların, ayırıcıların və digər texniki avadanlıqların açılıb-qoşulması, o cümlədən aktivlərin, proseslərin, resursların idarə edilməsi, qüsurların təcili aradan qaldırılması və başqa əməliyyatların proqram təminatı vasitəsilə avtomatik həyata keçirilməsi təmin edilib. Yarımstansiyanın yeni tikilən İdarəetmə Mərkəzində isə 35 və 10 kV-luq rəqəmsal qapalı paylayıcı qurğular yerləşdirilib. Bununla yanaşı, mərkəz əks-qəza avtomatikası, mikroprosessor tipli rele mühafizəsi, avtomatika və idarəetmə panelləri, sabit və dəyişən cərəyan qurğuları ilə təmin edilib. Yarımstansiyada müasir tələblərə cavab verən mikro SCADA sistemi yaradılıb və "AzərEnerji"nin mərkəzi SCADA sistemi ilə sinxronlaşdırılıb.

Dövlətimizin başçısı "Ağdam" qovşaq yarımstansiyasını işə saldı. Qeyd edək ki, buna qədər 2022-ci il fevralın 13-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "AzərEnerji"nin yeni tikilən 110/35/10 kV-luq "Ağdam-1" yarımstansiyası və onun yaxınlığında tikilən "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzi istismara verilib.



## Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimi keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq dördüncü yaşayış kompleksinin təməlinin qoyulması mərasimində də iştirak ediblər.**





AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumi sahəsi 137 min kvadratmetr təşkil edən 1080, o cümlədən 36 birotaqlı, 363 ikiotaqlı, 484 üçotaqlı, 197 dördotaqlı mənzil olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Qeyd edildi ki, yaşayış kompleksindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Kompleksdə, həmçinin idman meydançaları, istirahət guşələri, uşaq oyun meydançaları, velosiped yolları və avtomobil dayanacaqları yaradılacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlini qoydu.



## Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq beşinci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 12 hektar olan yaşayış kompleksinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Kompleks şəhərin təsdiq edilmiş ümumi baş planına uyğun salınacaq. Bu kompleksdə tikiləcək yaşayış binalarında ümumilikdə 1115 mənzil olacaq. Mənzillərdən 25-i birotaqlı, 314-ü ikiotaqlı, 552-si üçotaqlı, 224-ü isə dördotaqlı olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Qeyd edildi ki, kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik enerjisi və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə ediləcək.

Dövlətimizin başçısı Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməlini qoydu.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn ediliblər. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılıb. Kompleksin bərpası ilə bağlı xarici mütəxəssislər tərəfindən hazırlanmış konsepsiya 2022-ci il oktyabrın 4-də dövlətimizin başçısına təqdim olunub və işlərə başlanılıb. Konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət olacaq, xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

*Ardı 3-cü səh.*

# Ağdam möhtəşəm quruculuq meydanıdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar

*Əvvəli 2-ci səh.*

Xarici mütəxəssislərin Ağdama səfərləri çərçivəsində sahənin inspeksiyası və çəkilişləri aparılıb, arxiv materialları araşdırılıb, beynəlxalq təcrübəyə əsaslanaraq bərpa və dizayn layihələri hazırlanıb. Kompleks ümumilikdə 3,3 hektar ərazini əhatə edəcək.

"İmarət" Kompleksindəki tarixi qəbiristanlıqda mövcud beş türbə qalığı tədqiqat sahəsinə daxil edilib. Türbələrin içi və ətrafı erməni işğalçılarının bu abidələrin daxilində qurduğu donuzçuluq təsərrüfatının tullantılarından və digər qalıqlardan təmizlənib.

Tədqiqat nəticəsində burada çox sayda müsəlman qəbirləri, daş abidələrin fraqmentləri - başdaşıları, sinədaşıları, antik dövr sütun bazası, antropomorf büt aşkarlanıb. Ərazidə xüsusilə kəllə və alt çənə sümükləri, çox sayda insan skeletinin fraqmentləri tapılıb. Onların arasında xan nəslinə aid olan qədim sərdabə tipli qəbirlər də yer alıb. Burada sovet dövründə dəfn edilənlərin qəbirlərinin böyük bir hissəsi vandalizmə məruz qalıb. Ərazidə aşkarlanan sümüklərdən DNT nümunələri götürülüb, qəbirlərin identifikasiyası üzərində araşdırmalar davam etdirilir.






Erməni işğalçılar tərəfindən məzarların sinədaşı və başdaşıları sındırılıb, bir çoxu müxtəlif məqsədlə istifadə üçün qəbiristanlıq ərazisindən çıxarılıb.

Kompleksin ərazisində arxeoloji tədqiqatların aparılması məqsədilə AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu bu ilin aprelində Ağdam şəhərinə mütəxəssislərdən ibarət elmi ekspedisiya göndərib. Tədqiqatlar zamanı tapıntıların foto və videoçəkilişləri həm fotoaparat, həm də kvadrokopterlə aparılıb. Tədqiqatlar nəticəsində müəyyən edilib ki, "İmarət" Kompleksinə aid olan tarixi qəbiristanlığın ərazisi 6 min kvadratmetrdir. Cari ilin sonunadək kompleksin ərazisindəki tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işlərinin birinci mərhələsi yekunlaşacaq. Burada tədqiqat işlərinin ikinci mərhələsinə başlanılacaq.

Kompleksin tam bərpası üçün vəsaitin Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.









## Ağdam şəhər Mərkəzi parkının təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhər Mərkəzi parkının təməlinin qoyulması mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verildi.

İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulması ilə yanaşı, həmin yerlərdə ekoloji tarazlığın bərpası, yeni yaşıllıq sahələrinin və parkların salınması istiqamətində də ciddi addımlar atılır.

Ağdam şəhərinin yeni baş planına əsasən salınacaq park 5 hektar ərazini əhatə edəcək. Parkın layihəsi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri nəzərə alınmaqla hazırlanıb.

Mərkəzi parkın ümumi ərazisi dörd zonaya ayrılacaq. Şəhər meydanı, Botanika bağı, çəmənlik və meşəlik zonalarında mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaq. Burada, həmçinin su oyun zonaları, çay evləri, istirahət və iaşə obyektləri, mədəni və öyrədici meydançalar, təhsil və sağlamlıq sahələri və aktiv oyun zonaları fəaliyyət göstərəcək. Müxtəlif ağac növlərinin və dekorativ kolların əkiləcəyi Ağdam şəhər Mərkəzi parkında istirahət etmək, idmanla məşğul olmaq istəyənlər üçün hər cür şərait yaradılacaq.

Parkın salınması ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verməklə yanaşı, həm Ağdam sakinlərinin, həm də şəhərin qonaqlarının, turistlərin istirahəti üçün ən gözəl məkanlardan birinə çevriləcək.

Prezident İlham Əliyev Ağdam şəhər Mərkəzi parkının təməlini qoydu.

Sonra dövlətimizin başçısı və birinci xanım Mərkəzi parkın ərazisində ağac əkdilər.







## Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.



Qeyd edildi ki, magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

# Ağdam möhtəşəm quruculuq meydanıdır

## Prezident İlham Əliyev Ağdamın Qiyaslı kəndinin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Qiyaslı kəndinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 400 hektara yaxındır. Qiyaslı kəndində 4972 nəfərin məskunlaşması planlaşdırılıb. Kənddə ümumilikdə 1323 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 145 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2546 nəfərin köçürülməsi üçün 656 fərdi ev tikiləcək.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə işlə təmin olunacaqlar.

Qiyaslı kəndində 540 şagird yerlik məktəb, 180 yerlik isə iki uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev Qiyaslı kəndinin təməlini qoydu.







## Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməlini qoyub.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 178 hektara yaxındır. Salahlı Kəngərli kəndində 1376 nəfərin məskunlaşması nəzərdə tutulub. Layihə üzrə kənddə ümumilikdə 418 fərdi ev tikiləcək.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 99 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 850 nəfərin köçürülməsi üçün 150 fərdi evin tikilməsi planlaşdırılır.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada əhali müxtəlif təyinatlı obyektlərdə və kənd təsərrüfatı sahələrində işlə təmin olunacaqlar.

Salahlı Kəngərli kəndində 480 şagird yerlik məktəb, 80 yerlik isə uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev Salahlı Kəngərli kəndinin təməlini qoydu.



## Xaçınçay su anbarı təmir-bərpadan sonra istifadəyə verilib











**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Bildirildi ki, Xaçınçay su anbarının 7 kilometr uzunluğunda kanalla birlikdə təmiri və bərpası aparılıb.

Ağdam rayonu ərazisində yerləşən Xaçınçay su anbarı 1964-cü ildə istismara verilib. Anbarın ümumi su tutumu 23 milyon kubmetr, bəndin hündürlüyü 44 metr, uzunluğu 940 metr, su səthinin güzgü sahəsi isə 176 hektar təşkil edir. Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan bu mənbədən ümumilikdə suvarılan 7 min hektar torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva su anbarında görülən işləri əks etdirən videoçarxa baxdılar.

Dövlətimizin başçısı Xaçınçay su anbarını işə saldı.

Qeyd edildi ki, texniki sxemlə Xaçınçay su anbarına daxil olan sular tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 3,2 kubmetr olan əsas magistral kanala ötürülür. Kanalın başlanğıc 6,64 kilometr hissəsi də bəndlə bərabər təmir və bərpa olunub. Su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilib.

# Ağdam möhtəşəm quruculuq meydanıdır

## Uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilib.

Bərdə-Ağdam avtomobil yolunun 25-ci və 40-cı kilometrlik hissələrində 91,3 metr və 18,2 metr uzunluğunda avtomobil körpülərinin, yolun 14-cü və 42-ci kilometrlik hissələrində isə 66 metr və 43 metr uzunluğunda yol qovşaqlarının və 4-cü, 14-cü və 16-cı kilometrlik hissələrində yerüstü piyada keçidlərinin tikintisi uğurla icra olunub. Nəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün yolboyu üfüqi nişanlanma xətlərinin çəkilişi, yol nişanlarının və məsafə göstəricilərinin, həmçinin müasir məlumatverici lövhələrin quraşdırılması işləri icra olunmaqla yol beynəlxalq standartlar çərçivəsində istifadəyə verilib.

Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən həmin rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

## Ağdam rayonunun Baş Qərvənd kəndinin də təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Baş Qərvənd kəndinin təməlqoyma mərasimində iştirak edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Kəndin ümumi ərazisi 476 hektardır. Kənddə 6057 nəfərin məskunlaşması və ümumilikdə 1495 fərdi evin tikilməsi nəzərdə tutulub.

Layihənin birinci mərhələsi üçün 202 hektardan çox torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 851 ailənin - 3703 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün bu mərhələdə 851 ev inşa ediləcək. Bu evlərin 170-i ikiotaqlı, 425-i üçotaqlı, 213-ü dördotaqlı, 43-ü isə beşotaqlı olacaq.

Prezident İlham Əliyev görüləcək işlər barədə videoçarxa baxdı.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada uşaq bağçası, məktəb, kollec binaları, kollektiv istirahət və təhsil obyektləri, inzibati bina, klub icma mərkəzi, tibb məntəqəsi, aptek, mehmanxana, bazar və bir sıra xidmət müəssisələri yaradılacaq. Kənddə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev Baş Qərvənd kəndinin təməlini qoydu.

## Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Misir arasında ənənəvi dostluq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. İnanıram ki, dövlətlərarası əlaqələrimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## İsveçrə Konfederasiyasının yeni seçilmiş Prezidenti zati-aliləri xanım Viola Amherdə

Hörmətli xanım Amherd!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Biz Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında təşəkkül tapmış əlaqələrə böyük əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin ötən dövr ərzində yüksələn xətt üzrə inkişaf edərək hazırkı səviyyəyə çatması məmnunluq doğurur.

İnanıram ki, xalqlarımızın rifahı naminə dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək qarşıdan gələn Yeni, 2024-cü il münasibətilə də Sizə və dost xalqınıza ən səmimi təbriklərimi yetirir, İsveçrə Konfederasiyasına daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Küveyt Dövlətinin Əmiri kimi taxta çıxmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Küveyt dostluq əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Küveyt xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## 2024-cü ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1 000 000 (bir milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Göyçay rayonunun Bakı-Şamaxı-Yevlax (218 km)-Potu-Ulaşlı Şıxlı-Üngütlü- Çərəkə-Çərəcə-Şıxlar-Xəlitli-Yeniarx-Hacıağabəyli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On dörd min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Bakı-Şamaxı-Yevlax (218 km)-Potu-Ulaşlı Şıxlı-Üngütlü-Çərəkə-Çərəcə-Şıxlar-Xəlitli-Yeniarx-Hacıağabəyli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## R.İ.Usubovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Ramil İdris oğlu Usubov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## M.M.Çaybasarskinin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda xidmətlərinə görə Məcid Mayis oğlu Çaybasarski 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## E.Ə.Qasımzadənin 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elbay Ənvər oğlu Qasımzadə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. aşağıdakı normativ hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

1.1.1. dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsvirini, spesifikasiyasını, nümunəsini və verilməsi qaydasını;

1.1.2. dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi qaydasını;

1.1.3. dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısını, onların geyim formasını, fərqlənmə nişanlarının təsvirini və daşınması qaydasını;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanlarının təşkilini və keçirilməsini bu Sərəncamın 1.1.2-ci yarımbəndində nəzərdə tutulan qaydaya uyğun olaraq təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Hövsan aerasiya qurğusundan Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamına uyğun olaraq alternativ su mənbələrindən istifadənin genişləndirilməsi, su itkilərinin azaldılması, tullantı sularının təmizlənməsi və təkrar istifadəsi, habelə bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə **qərara alıram:**

1. Hövsan aerasiya qurğusundan Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı Abşeron rayonu ərazisində pilot layihə (bundan sonra - pilot layihə) həyata keçirilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. pilot layihənin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçirilməsi ilə əlaqədar zəruri tədbirlər görülməsini təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya pilot layihənin həyata keçirilməsi üzrə tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir və ən səmimi arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və ölkənizə xidmətinizdə uğurlar diləyirəm.

Gürcüstan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluq və tərəfdaşlıq münasibətləri onilliklər ərzində inkişaf edir. Ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsində Sizin şəxsi töhfəniz xüsusi əhəmiyyət kəsb edir.

Zati-aliləri, bir daha dərin ehtiramımı bildirir, bu fürsətdən istifadə edərək Sizi və dost Azərbaycan xalqını Yeni il münasibətilə təbrik edir, sülh, cansağlığı və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqa və həyat yoldaşı İmants Freyberqs:**

- Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq. Bu əlamətdar gündə fürsətdən istifadə edərək Sizi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi münasibətilə bir daha təbrik edirik. Sizə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirik.

❖ ❖ ❖

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti İsmail Serageldin:**

- Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə təbrik edir, ən səmimi və xoş arzularımı bildirirəm. Xüsusilə bu tarixi dönəmdə - Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyiniz bir vaxtda qoy Sizin bu zəfər marşınız yeni-yeni uğurlar gətirsin, dostlarınız və Sizi sevənlər bu uğurlara baxıb sevinsinlər!

❖ ❖ ❖

**2004-2012-ci illərdə Serbiyanın Prezidenti Boris Tadiç:**

- Əziz dostum, Prezident Əliyev.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, neçə-neçə belə gözəl illərə çıxmağınızı arzulayıram.

❖ ❖ ❖

**2009-2011-ci illərdə Belçikanın Baş naziri İv Löterm:**

- Hörmətli Prezident.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə minnətdaram. Sizə, ailənizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

❖ ❖ ❖

**2006-2009-cu illərdə İsrailin Baş nazirinin müavini, xarici işlər naziri, 2006-2007-ci, 2013-2014-cü illərdə ədliyyə naziri Tzipi Livni:**

- Hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram. Mərkəzimizə göstərdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

❖ ❖ ❖

**Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Turki Al Faysal Al Saud:**

- Zati-aliləri Prezident İlham Əliyev.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Bu əlamətdar gündə Sizə, ailənizə və Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik diləyirəm.

❖ ❖ ❖

**1997-2000-ci, 2001-2005-ci illərdə Norveçin Baş naziri Kyel Maqne Bondevik:**

- Hörmətli Prezident, əziz dostum.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə həmkarlarım adından və şəxsən öz adımdan minnətdarlığımızı bildirirəm. Sizinlə əməkdaşlıq etmək çox xoşdur. Sizə təbriklərimi və ən xoş arzularımı çatdırıram.

❖ ❖ ❖

**2012-2022-ci illərdə Sloveniyanın Prezidenti Borut Pahor:**

- Hörmətli Prezident və əziz dost.

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırıram. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin möhtəşəm komandası ilə birgə Sizinlə şəxsən görüşümüzü səbirsizliklə gözləyirəm. Sizə uğurlar diləyirəm.

❖ ❖ ❖

**"Müasir Köləliyə Son Qoyaq" Qlobal Fondunun İdarə Heyətinin sədri, "Exxon Mobile" şirkətinin sabiq vitse-prezidenti Jan Baderşneyder:**

- Hörmətli Prezident Əliyev.

Sizi doğum gününüz münasibətilə təbrik edir, zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram. Siz dünyanın çox dəyərli və mühüm əhəmiyyət kəsb edən bölgəsində möhtəşəm liderlik nümayiş etdirirsiniz. Bizim daha çox müdrik və cəsarətli liderlərə ehtiyacımız var. Mən Azərbaycanı dəstəkləməyə davam edəcəyəm. Sizinlə birgə işləməyə ümidvaram.

❖ ❖ ❖

**2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti Rosen Plevneliyev və 1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti Petar Stoyanov:**

- Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə bütün Bolqarıstan xalqı adından və şəxsən öz adımızdan ən xoş arzularımızı çatdırırıq. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə daha firavan həyat diləyirik. Bizim Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Sizinlə fəxr edirlər.



❖ ❖ ❖

**BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2012-2014-cü illərdə Ekvadorun müdafiə naziri, 2017-2018-ci illərdə xarici işlər naziri Mariya Fernanda Espinoza:**

- Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edir, Sizə uzun ömür, cansağlığı və firavan həyat diləyirəm. Azərbaycana əbədi sülh arzulayır, eləcə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin əsasını təşkil edən mədəniyyətlərarası dialoq və qarşılıqlı anlaşmaya göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

❖ ❖ ❖

**TENEO şirkətinin baş müşaviri, Fransanın sabiq Prezidenti Şarl de Qolun nəvəsi Natali Qule:**

- Cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm və qarşıdan gələn ildə Sizə yeni-yeni uğurlar arzulayıram.

Yeni ildə Sizə sevinc dolu günlər və xoşbəxtlik diləyirəm.

❖ ❖ ❖

**2015-2018-ci illərdə Mavrikinin Prezidenti Amina Qurib-Fakim:**

- Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı və firavanlıq arzulayıram. Qoy Azərbaycan dövləti həmişə Sizin güclü liderliyinizdən bəhrələnsin!

❖ ❖ ❖

**2007-2011-ci illərdə Latviyanın Prezidenti Valdis Zatlers:**

- Zati-aliləri, cənab Prezident.

Sizinlə tez-tez görüşməsək də, səmimi münasibətimiz həmişə davam edəcək. Mən həmişə Sizi etibarlı dostum hesab edəcəyəm. Doğum gününüz mübarək, hörmətli Prezident.

❖ ❖ ❖

**2014-2018-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç:**

- Əziz dostum, hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Dost Azərbaycan xalqının mənafeyi naminə Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram. Qarşıdan gələn Yeni il bayramı münasibətilə də ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

❖ ❖ ❖

**2022-2023-cü illərdə BMT-nin Baş Assambleyasının 77-ci sessiyasının sədri Ksaba Korosi:**

- Hörmətli Prezident.

Birgə keçirdiyimiz universitet illərini xatırlayaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ailəsinə göstərdiyiniz böyük dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Sizə və sevdiyim ölkənizə yeni-yeni uğurlar arzulayıram.

❖ ❖ ❖

**2012-2016-cı illərdə Monteneqronun müdafiə naziri Milisa Pjanoviç-Durisiç:**

- Hörmətli cənab Prezident.

İcazə verin, bu xoş fürsətdən istifadə edərək Sizə doğum gününüz münasibətilə ən xoş arzularımı çatdırım. Sizinlə görüşlərimizi daim xatırlayır, təşkilatımıza göstərdiyiniz diqqət və qayğıya görə Sizə ən səmimi duyğularla minnətdarlığımı bildirirəm.

❖ ❖ ❖

**UNESCO-nun xoşməramlı səfiri və mədəni diplomatiya üzrə xüsusi nümayəndəsi Hedva Ser:**

- Cənab Prezident, Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzu edərək ən yüksək ehtiramımı bildirirəm.

❖ ❖ ❖

**2010-2012-ci illərdə Monteneqronun Baş naziri İqor Luksiç:**

- Hörmətli cənab Prezident Əliyev.

Doğum gününüzü səmimi-qəlbdən təbrik edirəm. Bu xoş fürsətdən istifadə edərək Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyir, bizim Beynəlxalq Mərkəzimizə göstərdiyiniz diqqət və qayğıya görə minnətdarlığımızı bildirirəm.

❖ ❖ ❖

**2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti İvo Yosipoviç:**

- Zati-aliləri Prezident İlham Əliyev.

Doğum gününüz mübarək olsun! Azərbaycanın Prezidenti vəzifəsində möhtəşəm nailiyyətləriniz münasibətilə Sizi təbrik edirəm. Sizin iqtisadiyyata, mədəniyyətə, xalqlar arasında sülhə və dostluğa verdiyiniz dəyər yalnız öz gözəl ölkənizə deyil, bütün dünyaya töhfədir. Bu xoş fürsətdən istifadə edərək, Sizə uzun ömür, xoşbəxtlik və möhtəşəm liderliyinizin davamlı olmasını arzu edirəm.

❖ ❖ ❖

**2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini, 2008-ci ildə xarici işlər naziri Eka Tkeşelaşvili:**

- Hörmətli Prezident.

Bu xoş fürsətdən istifadə edərək Sizi doğum gününüz münasibətilə təbrik edirəm. Sizin xalqınız xoşbəxtdir ki, həyatını öz Vətəninin inkişafına həsr edən Lideri var. Azərbaycanın möhtəşəm nailiyyətlərini müşahidə etmək fürsətimiz oldu. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə və bizə bu mühüm prosesin bir hissəsi olmağa imkan yaratdığınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı və qarşıdakı planlarınızın həyata keçməsini, Qarabağın tamamilə bərpa olunmasını, Azərbaycanın mühüm regional və qlobal oyunçu kimi rolunun daha da artmasını arzu edirəm. Sizə və ailənizə ən xoş arzularımı çatdırıram.

❖ ❖ ❖

**Bosniya və Herseqovinanın BMT-də daimi nümayəndəsi, 2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri, 1993-1996-cı, 2012-2015-ci illərdə Baş nazirin müavini Zlatko Laqumciya:**

- Hörmətli Prezident və əziz dost.

Doğum gününüz münasibətilə ürəkdən gələn təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizə və ölkənizə ən xoş arzularımı çatdırıram. Rəhbərliyinizlə yaradılmış Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə xüsusi minnətdarlığımı bildirirəm. Bizim hər zaman Azərbaycanın haqq işini dəstəkləyəcəyimizə əmin ola bilərsiniz.

❖ ❖ ❖

**2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu:**

- Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə zati-alinizə, çox hörmətli xanımınıza və qardaş Azərbaycan xalqına cansağlığı və uzun ömür diləyirəm. Bu il bizi sevindirən çox böyük nailiyyətlərin şahidi olduq. Belə ki, Sizin Ali Baş Komandanlığınız, türk xalqının mənəvi dəstəyi ilə qəhrəman Azərbaycan Ordusu işğal altındakı digər torpaqlarını da azad etdi və hər kəsin iftixar hissinə çevrilən daha bir şanlı Zəfər qazandı. Qardaş Azərbaycan xalqına Sizin rəhbərliyinizlə daha firavan və xoşbəxt həyat şəraiti arzu edirəm. Sizin himayəniz altında fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yeni-yeni uğurlar əldə edəcəyinə inanıram. Ən səmimi arzu və diləklərimi qəbul etməyinizi xahiş edirəm.

❖ ❖ ❖

**ICESCO-nun sabiq Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri:**

- Möhtərəm cənab Prezident İlham Əliyev.

Zati-alinizi doğum gününüz münasibətilə təbrik etməkdən böyük şərəf duyuram. Siz dünyada sülhün, dialoqun və birgəyaşayışın təşviqinə göstərdiyiniz səmimi səylərə görə zəmanəmizin ən müdrik liderlərindən birisiniz. Sizə ölkənizin daha da inkişafı yolunda davamlı uğurlar arzu edirəm.

❖ ❖ ❖

**BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri, 2015-2016-cı illərdə Türkiyənin Avropa İttifaqı işləri üzrə naziri Volkan Bozkır:**

- Cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. İnşallah, bu günə qədər Azərbaycan üçün gördüyünüz möhtəşəm işlərinizin, bütün dünyanın qibtə ilə izlədiyi nailiyyətlərinizin davamlı olmasını diləyirəm.

Xanımım Nazlı ilə birlikdə Azərbaycanın birinci xanımına və zati-alinizə ən dərin ehtiramımı bildirirəm.

❖ ❖ ❖

**2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini, 2019-cu ildə ədliyyə naziri, 2012-2020-ci illərdə parlamentin üzvü Ana Birçal:**

- Hörmətli cənab Prezident.

Sizə doğum gününüz münasibətilə ən səmimi arzularımı çatdırır və neçə belə gözəl illərə çıxmağınızı diləyirəm. Siz müdrikliyiniz və strateji liderliyiniz sayəsində Azərbaycanın ərazi bütövlüyünə nail olaraq ölkənizi beynəlxalq səviyyədə tanıtmısınız. Bizim ortaq məqsədlərimiz - Rumıniya ilə Azərbaycan arasında strateji tərəfdaşlığı gücləndirmək və dərinləşdirmək istiqamətində Sizinlə birgə çalışmaq böyük məmnunluq doğurur. Dahi Nizami Gəncəvinin dediyi kimi, bizim dostluğumuz səmimi və saf olmalıdır. Biz Sizin və Azərbaycanın əsl dostuyuq.

❖ ❖ ❖

**2004-2007-ci illərdə Pakistanın Baş naziri Şövkət Əziz:**

- Zati-aliləri cənab Prezident Əliyev.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olmaq böyük şərəfdir.

Mərkəz sülhü, inkişafı və firavanlığı təşviq etməkdə mühüm rola malikdir.

Dünyanın Sizin kimi liderlərə ehtiyacı var ki, onlar insanların həyat şəraitini, təhsilin səviyyəsini yüksəltməyə kömək etsin. Zati-aliləri, Siz sülhün, tolerantlığın və dinc yaşayışın bərqərar olması üçün çox iş görmüsünüz və əminik ki, bundan sonra da çox iş görəcəksiniz. Sizin nəcib təşəbbüslərinizin bir hissəsi olmaqdan fəxr edir və Sizə davamlı uğurlar arzulayırıq.

❖ ❖ ❖

**2003-2018-ci illərdə Monteneqronun Prezidenti Filip Vuyanoviç:**

- Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Monteneqronun Prezidenti olduğum illərdə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi Sizinlə görüşlərimi, apardığımız danışıqları məmnunluqla xatırlayır, Sizə dərin ehtiramımı bildirirəm. Monteneqro ilə Azərbaycan arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə Sizin bundan sonra da töhfələrinizi görməkdən məmnun olacağam.

❖ ❖ ❖

**2013-2020-ci illərdə Maltanın Baş naziri Cozef Muskat:**

- Hörmətli Prezident, əziz dostum.

Doğum gününüz münasibətilə ailəm adından və şəxsən öz adımdan Sizə ən xoş arzularımı bildirirəm. Malta üçün etdiklərinizə görə Sizə minnətdaram. Mənim həmvətənlərim Sizə minnətdarlıqlarını bildirirlər. Biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzində birgə fəaliyyət göstərməyə davam edəcəyik.

❖ ❖ ❖

**İtaliya Prezidentinin sabiq diplomatik müşaviri, Malta Hərbi Ordeninin Vatikandakı səfiri, "Pirelli" şirkətinin baş müşaviri Antonio Zanardi Landi:**

- Hörmətli cənab Prezident Əliyev.

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırım. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müxtəlif ölkələr arasında dostluq və anlaşmanı gücləndirmək üçün göstərdiyi müstəsna fəaliyyətə verdiyiniz dəstəyə görə Sizə çox minnətdarıq. Zati-alinizə, ailənizə və ölkənizə ən xoş arzularımı çatdırıram.

❖ ❖ ❖

**2015-ci ildə Moldovanın Baş naziri Kirill Qaburiçi:**

- Zati-aliləri cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Belə xoş günləri bundan sonra da doğmalarınızın və yaxınlarınızın əhatəsində qeyd etməyinizi arzulayıram. Qarşıdan gələn ildə Azərbaycana yeni-yeni uğurlar, firavanlıq və davamlı inkişaf diləyirəm.

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Rusiya Uşaq Fondu və Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından səmimi təbriklərimi qəbul edin.

Uşaq Fondu 35 ildir uşaqların müdafiəsini həyata keçirir və biz əl-ələ verərək gələcəyin layiqli vətəndaşları nəslinin formalaşdırılması istiqamətində yüksək məqsədə doğru irəliləyirik. Belə əlamətdar günlərdə biz Vətənin və onun xalqının maraqları üçün yaşamış valideynlərimizi sevgi ilə xatırlayırıq.

Sizə möhkəm cansağlığı, hər zaman xoş əhvali-ruhiyyə, tükənməz enerji arzulayıram. Qoy xeyirxah işlər həmişə uğurla və böyük həvəslə həyata keçsin! Bu işlərin mükafatı isə Azərbaycan Respublikasının xoşbəxt uşaqlarının təbəssümü olacaq.

*Hörmətlə,*

***Dmitri LİXANOV,***
***Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, Rusiyanın Əməkdar jurnalisti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz istedadlı dövlət xadimi kimi bu gün respublikanın gələcək inkişafı və möhkəmləndirilməsi istiqamətində genişmiqyaslı məsələləri həll edirsiniz.

Azərbaycan dünya arenasında böyük nüfuza malikdir, mühüm beynəlxalq məsələlərin həllində fəal rol oynayır. Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hərbi-texniki əməkdaşlıq üzrə ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf edir.

Əminəm ki, Rusiya və Azərbaycan dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrini gələcəkdə də möhkəmləndirəcək və inkişaf etdirəcək.

Sizə möhkəm cansağlığı arzulayır və ən xoş diləklərimi çatdırıram.

*Hörmətlə,*

***Sergey ÇEMEZOV,***
***Rusiya Federasiyasının "Rostex" Dövlət Korporasiyasının baş direktoru***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının əldə edilmiş nailiyyətlər əsasında gələcək sosial-iqtisadi inkişafı üzrə mühüm və məsuliyyətli fəaliyyətinizin davamlı olmasını və Rusiyanın regionları ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqaməti də daxil olmaqla, yeni təşəbbüs və layihələrin həyata keçirilməsini arzulayıram.

Sizə möhkəm cansağlığı, uğurlar diləyirəm.

*Hörmətlə,*

***Andrey BOÇAROV,***
***Rusiya Federasiyası Volqoqrad vilayətinin qubernatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində məqsədyönlü fəaliyyətiniz Sizin zəmanəmizin görkəmli siyasi və dövlət xadimi kimi böyük istedadınızı üzə çıxardı. Ölkənizin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi, sosial və mədəni inkişaf strategiyasının ardıcıl və dəqiq həyata keçirilməsi Sizə cəmiyyətdə və beynəlxalq arenada böyük hörmət, etimad və nüfuz qazanmağa imkan verib.

Yüksək peşəkarlıq, zəngin həyat təcrübəsi, ən mürəkkəb şəraitlərdə siyasi kompromis tapmaq bacarığı, Azərbaycan vətəndaşlarının maraqları naminə sosial siyasətin ardıcıl həyata keçirilməsi Sizə ölkənin qarşısında duran vəzifələri uğurla həll etmək imkanı verib.

Hörmətli İlham Heydər oğlu, doğum gününüz münasibətilə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, çoxmillətli Azərbaycanın gələcək inkişafı naminə planlarınızın və təşəbbüslərinizin həyata keçirilməsində yeni-yeni uğurlar, əmin-amanlıq, sülh, xoşbəxtlik və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli İlham Heydər oğlu!

İcazə verin, "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi adından və şəxsən öz adımdan Sizə olan dərin ehtiramımı bildirim, doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırım.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik inkişaf yolu ilə irəliləyir, bütün sahələrdə böyük uğurlar qazanır və ardıcıl surətdə dünyada öz nüfuzunu möhkəmləndirir. Sürətlə inkişaf edən və daim böyük nailiyyətlər qazanan Azərbaycan digər dövlətlərlə uğurlu qarşılıqlı əlaqələr üçün əlverişli mühitə malikdir və bununla beynəlxalq aləmdə imicini qoruyub saxlayır. "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi ölkənizin iqtisadi, sosial tərəqqisi və nəqliyyat sənayesinin əsas rol oynadığı əməkdaşlığın inkişafı istiqamətində Sizin xidmətlərinizi yüksək qiymətləndirir.

Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının "TRACECA"nın həm milli, həm də beynəlxalq səviyyədə fəaliyyətinə göstərdiyi dəstəyə görə dərin minnətdarlığımı bildirirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Asset ASSAVBAYEV,***
***"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə Şimali Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Tanrıya dua edərək Sizə firavanlıq, xoşbəxtlik, qardaş Azərbaycan xalqının rifahı, Qafqazda və bütün dünyada möhkəm sülh naminə fəaliyyətinizdə yeni uğurlar və zəfərlər arzu edirəm.

Siz Azərbaycan Respublikasının Prezidenti və öz xalqının lideri kimi ölkənizin sosial-iqtisadi inkişafı və onun beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi işində mühüm nəticələrə nail olmusunuz. Siz Azərbaycan xalqının mənəvi-əxlaqi inkişafı məsələlərinə, islamın həqiqi mənəvi dəyərlərinin möhkəmlənməsinə, dinlərarası və millətlərarası həmrəyliyin qorunub saxlanmasına və dərinləşməsinə böyük diqqət yetirirsiniz.

Siz atanız, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunu davam etdirərək Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsi və ölkənin ərazi bütövlüyünün bərpası üçün misilsiz xidmətlər göstərmisiniz. Sizin parlaq diplomatik istedadınız, siyasi müdrikliyiniz və qeyri-adi liderlik keyfiyyətləriniz sayəsində bu gün Azərbaycan regionda şəksiz lider və keyfiyyətcə yeni geosiyasi şəraitin yaradılmasının lokomotivi, sabitliyin, sülhün və mehriban qonşuluğun carçısıdır.

Sizin mərdliyinizə, qətiyyətinizə və müdrik uzaqgörənliyinizə - yalnız həqiqətən güclü və cəsur insana xas olan keyfiyyətlərinizə görə Şimali Qafqazın bütün müsəlmanları adından Zati-alinizə təşəkkürümü bildirməyi özüm üçün şərəf sayıram.

Zati-aliləri, biz, Qafqaz müsəlmanlarının nümayəndələri daim Sizin yanınızda olacağıq. Qafqazda və bütün dünyada sülh, sabitlik və rifah naminə qadir Allaha dua edirik. İnşallah.

Ulu Tanrı yorulmaz fəaliyyətinizdə Sizə kömək olsun, mərhəmətini heç vaxt əsirgəməsin.

*Dərin hörmətlə,*

***Şaqabitdin-Hacı KERİMOV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Şimali Qafqaz üzrə səlahiyyətli nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İndiyə qədər əldə etdiyiniz nailiyyətlər Sizin peşəkar liderliyiniz və yaxşı düşünülmüş siyasətiniz sayəsində mümkün olub. Siz Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam təmin etməklə yanaşı, davamlı tərəqqi və yüksəlişin nadir nümunəsinə nail olmusunuz. Siz sülh şəraitində birgəyaşayışa və qonşularınızla əməkdaşlığa önəm verirsiniz. Həmçinin Qoşulmama Hərəkatına uğurla sədrlik etmiş, təşkilatın fəaliyyətinə mühüm töhfələr vermisiniz. Təbii ki, bunlar 2023-cü ildə əldə etdiyiniz nailiyyətlərin bir qismidir. Əminəm ki, yeni ildə daha mühüm məqsədlərin həyata keçirilməsinə nail olacaqsınız. Bu sırada COP29-u xüsusi vurğulamaq istərdim. Uğurlarınız daim himayə etdiyiniz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri tərəfindən yüksək qiymətləndirilir.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizi Yeni 2024-cü il münasibətilə də təbrik edir, Sizə və ailənizə xoşbəxtlik və firavanlıq arzulayıram. Yeni ildə Sizin rəhbərliyinizlə Azərbaycana, eləcə də bütövlükdə regiona sülh, sabitlik, tərəqqi diləyirəm.

Möhtərəm Prezident, Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü, 1991-2001-ci illərdə Misirin xarici işlər naziri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi, uzun ömür, möhkəm cansağlığı arzularımı çatdırır, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Sizə yaşadığım Almaniyada, eləcə də sıx əlaqədə olduğum digər Avropa ölkələrində hər zaman xalqının önündə qürurla dayanan və verdiyi hər bir sözü yerinə yetirən əvəzedilməz Lider kimi rəğbət bəslənilir. Bunu istər siyasi, istərsə də akademik arenada əcnəbi vətəndaşlardan eşitmək ürəyi daim Vətənlə döyünən bir azərbaycanlı kimi mənə böyük qürur hissi yaşadır.

Cənab Ali Baş Komandan, dövlətçilik ənənələrinə sadiq olan, dövlətçilik prinsiplərini əsas tutan gənclərə göstərdiyiniz xüsusi diqqət və qayğı məndə və digər gənc dostlarımızda hər zaman böyük ruh yüksəkliyi yaradıb. Siz gənclərə hər addımda insanın öz kökünə və tarixinə sadiqliyi, xüsusən də ata və onun vəsiyyətinin müqəddəsliyi dərsini nümayiş etdirirsiniz. O sadiqlik və ata vəsiyyəti ki, məhz onunla biz doğma Vətənimizi bu gün bütövləşən görmüşük.

Azərbaycanı daim zirvələrə ucaltdığınız, Vətənimiz naminə bütün mübarizələrdə xalqımızı və dövlətimizi qalib etdiyiniz üçün Sizə sonsuz təşəkkürümü bildirirəm.

Sizi əmin etmək istəyirəm ki, gələn il keçiriləcək və tariximizə Zəfər seçkiləri kimi düşəcək növbədənkənar prezident seçkilərində hər zaman dövlətçilik ənənələrinə sadiq olan biz gənclər Sizi - müzəffər Sərkərdəmizi dəstəkləyəcəyik. Əminik ki, bu dəfə də qalib Siz, Azərbaycan xalqı və Azərbaycan dövləti olacaqdır.

Sizi həm öz adımdan, həm də hər zaman qayğınızı görən ailəmiz adından bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Nuran ABDULLAYEV,***
***Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Almaniyanın Troisdorf şəhərinin Radiologiya, Nuklear Tibb və Neyroradiologiya Klinikasının rəhbəri, tibb elmləri doktoru, dosent***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz təbiət etibarilə əsl lider, böyük ürəyi və parlaq zəkası olan insansınız. Siz müzəffərsiniz və daim Azərbaycan xalqına lazım olanı əldə edirsiniz. Siz millətin müdrik və xeyirxah atası, bütün azərbaycanlıların sevgi hissi bəslədiyi dövlət xadimisiniz.

Sizə səmimi-qəlbdən cansağlığı və xoşbəxtlik arzulayıram. Allah Sizi, Azərbaycanı və Azərbaycan xalqını hifz etsin!

*Hörmət və böyük minnətdarlıq hissi ilə,*

***Alişer USMANOV,***
***Rusiyalı sahibkar***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Zati-alinizi doğum gününüz münasibətilə təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizdə, beynəlxalq müstəvidə böyük dəyər kəsb edən səylərinizdə Uca Yaradandan uğurlar diləyirik.

Siz müdrikliyinizi yaşınızla, təvəllüd tarixinizlə deyil, əməllərinizlə, dövlətçilik təfəkkürünüzlə təsdiq etmiş dövlət xadimisiniz. Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsi olub, bəşər tarixinə həkk ediləcək hadisə miqyasına malikdir. Azərbaycan xalqının haqq mübarizəsinin qalibiyyət dastanını dünya tarixinin səhifələrinə möhtəşəm Zəfər Günü ilə həkk etmiş şəxsiyyət olaraq Zati-aliniz Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suveren hüququnu təsbit etdi. Tarixi ədalətin bərpası - əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi yönündə Ali Baş Komandan olaraq qalib gəldiyiniz Vətən müharibəsi haqqın, ədalətin təntənəsinə inamı təcəssüm etdirdiyi kimi, 15 oktyabr - Xankəndi Zəfəri millət olaraq ləyaqət və şərəfimizin bərpasını əyan etdi. Azərbaycan xalqının Ulu Öndərinin vəsiyyətini - Ata vəsiyyətini yerinə yetirmiş Zati-alinizin Azərbaycan cəmiyyətinə bəxş etdiyi bu təntənəli tarixi günə görə hər bir azərbaycanlının qəlbində özəl yeri vardır.

Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir. Şükürlər olsun ki, Vətənimizə, millətimizə uğurlar yaşadan Sizin kimi Liderimiz var. Böhranları üstələyə bilən iqtisadiyyatı, örnək siyasi mədəniyyəti, dini-mənəvi dəyərləri, multikultural ənənələri ilə tanınan Azərbaycan dünyaya örnəkdir. Bütün bunlar, heç şübhəsiz ki, Sizin güclü, ardıcıl siyasi iradənizin sayəsindədir. Bu gün Sizin rəhbərliyinizlə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan işğaldan azad olunmuş torpaqlarında erməni vandalizminin acı nəticələrini aradan qaldırır, möhtəşəm infrastruktur layihələri, genişmiqyaslı quruculuq işləri reallaşdırır. Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı qətiyyətli iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir.

Möhtərəm cənab Prezident, dini konfessiya rəhbərləri olaraq müxtəlif etnik və dini mənsubiyyət daşıyıcısı olan Azərbaycan vətəndaşlarının mənəvi harmoniya şəraitində bir ailənin üzvləri kimi xoşbəxt yaşamalarını təmin edən multikultural ənənələrimizə istinadən Sizin qlobal müstəvidə dinlər və sivilizasiyalararası dialoq işinə verdiyiniz böyük əməli töhfələri yüksək dəyərləndiririk. Sizin təvəllüd gününüz bizə xoş fürsət verir ki, Zati-alinizin Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinə görə bütün Azərbaycan dindarlarının dərin təşəkkürlərini bir daha ifadə edək. Azərbaycandakı müxtəlif dini konfessiyaların nümayəndələri - dindarlar və din xadimləri fəxr edir və inanırlar ki, Azərbaycanı qalib ölkə, xalqını Zəfər çalmış xalq yüksəkliyinə qaldırmış Zati-alinizin rəhbərliyi ilə Azərbaycan bundan sonra da yeni zirvələrə yüksələcək, hər zaman uğurlara imza atacaqdır.

Zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xəttinizi, beynəlxalq miqyasda həmrəyliyə xidmət edən ideyalarınızı dəstəkləyən, hər zaman diqqət, qayğı və himayənizi hiss edən biz dindarların duaları hər zaman Sizinlədir.

Möhtərəm cənab Prezident, Siz Uca Allahın köməyi ilə Azərbaycan xalqının dəstək və həmrəyliyi, sonsuz məhəbbət və dərin etimadını haqq etmisiniz və bu, Ulu Tanrının lütfüdür. Bu xoş fürsətdən istifadə edərək Azərbaycanda siyasi hakimiyyətə gəlişinizin 20-ci ildönümü münasibətilə Sizi ürəkdən təbrik edir, dövlətimizə və xalqımıza bəxş etdiyiniz uğurlu inkişaf yolu və tarixi nailiyyətlərə görə səmimi təbriklərimizi ifadə edirik. Həyatını Azərbaycana həsr etmiş, anadan olmasının 100-cü ildönümü tamam olan Ulu Öndərin bütün fəaliyyət və əməlləri kimi, ailə ocağında yetişmiş övlad da Azərbaycan xalqının səadətinə xidmət etməkdədir.

Möhtərəm cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurası adından Sizi - Azərbaycan dövlətinin müzəffər dövlət başçısını bir daha ürəkdən təbrik edir, ölkə dindarlarının iradəsini ifadə edərək Zati-alinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizə uğurlar diləyirik. O Bir Olan Yaradanımız hər zaman yardımçınız olsun, Lütf və Mərhəmətini Azərbaycan xalqı, dövləti və onun müdrik dövlət rəhbəri üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin! Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,***

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin və Azərbaycan Yeparxiyasının katibi,***

***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi,***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,***

***Robert MOBİLİ,***
***Alban-udi Xristian Dini İcmasının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Xahiş edirəm doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Gözəl diplomat, ən yüksək daxili mədəniyyətə, parlaq istedada malik bir şəxsiyyət kimi Siz mühüm layihələr həyata keçirirsiniz. Sizin böyük enerjiniz var və bir çox sahələrdə aktiv fəaliyyət göstərir, doğma ölkənizin inkişafına mühüm töhfə verirsiniz.

Sizin daimi dəstəyiniz və diqqətinizlə əhatə olunmuş Azərbaycan Respublikasının mədəni proqramları bir rəssam kimi mənim üçün xüsusilə yaxındır.

Rusiya Rəssamlıq Akademiyasının üzvlərinin aktual rəssamlıq layihələrinə və beynəlxalq fəaliyyətinə diqqətinizə, Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin möhkəmləndirilməsi üzrə birgə layihələrə dəstəyinizə görə Sizə minnətdaram.

Sizinlə və əziz, unudulmaz atanız Heydər Əliyevlə mənim üçün xoşbəxt olan ünsiyyət dəqiqələrini və görüşlərimizin bənzərsiz ab-havasını daim xatırlayıram.

Möhtərəm İlham Heydər oğlu, Sizə dərin ehtiramımı bildirmək, fəaliyyətinizdə daimi uğurlar, özünüzə və ailənizə möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik və tərəqqi diləmək fürsətinə görə ürəkdən şadam.

*Hörmətlə,*

***Zurab SERETELİ,***
***Rusiya Rəssamlıq Akademiyasının prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident.

Zati-alinizə doğum gününüz münasibətilə Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu xoş fürsətdən istifadə edərək OPEC və qeyri-OPEC ölkələrinin Əməkdaşlıq Bəyannaməsinə əsasən dayanıqlı neft bazarının sabitliyini təmin etmək üçün göstərilən səylərdə ən etibarlı tərəfdaşlardan biri olan Azərbaycan Respublikasının Prezidenti kimi Sizin idarəçilik, diplomatik və liderlik xüsusiyyətlərinizə heyranlığımı vurğulamağı özümə borc bilirəm.

Bu il Bakıya səfərim zamanı gərgin iş qrafikinizə baxmayaraq vaxt ayırıb məni qəbul etdiyiniz üçün zati-alinizə bir daha minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, gözəl ölkənizə səfərlərimiz zamanı keçirilən yüksəksəviyyəli görüşlərdə təşkilatımıza göstərilən misilsiz qonaqpərvərliyə görə Sizə daim minnətdarıq.

Cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, zati-alinizə möhkəm cansağlığı, uğurlar arzulayır və Azərbaycan Respublikasına uzun illər rəhbərlik etməyinizi diləyirəm.

*Hörmətlə,*

***Haysam Əl-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə və ailənizə möhkəm cansağlığı, ömür boyu xoşbəxtlik arzulayıram.

Zati-alinizin Ali Baş Komandanlığı ilə 44 günlük Vətən müharibəsi və 24 saatlıq antiterror tədbirləri nəticəsində can Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edərək həm Ümummilli Lider Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz, həm də Azərbaycan xalqının arzularını gerçəkləşdirdiniz. Sizin humanist, müdrik siyasətiniz sayəsində Azərbaycan Respublikası dünyada gündən-günə etibarını möhkəmləndirir.

Möhtərəm Prezident, hər iki ölkənin xalqları cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Türkiyə və Azərbaycan arasında böyük layihələrin reallaşmasından qürur duyur.

*Ən dərin hörmət və ehtiramla,*

***Şamil AYRIM,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dost.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizin fəal işiniz, dövlətin qarşısında duran əsas vəzifələri səmərəli surətdə həll etmək və beynəlxalq məsələlərin həlli yollarını tapmaq bacarığınız Sizə haqlı olaraq bütün dünyada yüksək nüfuz və hörmət qazandırıb.

Sizə dost deyə müraciət edə və ünsiyyət qura bildiyimə görə taleyimə minnətdaram.

Cənab Prezident, icazə verin, Sizə çoxşaxəli fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və firavanlıq arzulayım.

Fürsətdən istifadə edərək Sizə, ailənizə və ölkənizə Yeni illə bağlı ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***Stepan MESİÇ,***
***2000-2010-cu illərdə Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı və ən xoş arzularımı çatdırıram. Həmçinin böyük Azərbaycan dövlətinin və bütün regionun davamlı sülh, təhlükəsizlik və firavanlığa doğru aparılması istiqamətində fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə və dostluq salamları ilə,*

***Kolinda QRABAR-KİTAROVİÇ,***
***2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram.

Bu gün doğum gününüz milli maraqlara, beynəlxalq hüquqa, strateji baxışa, müdrikliyə, fədakarlığa və səbrə əsaslanan rəhbərliyinizlə həyata keçirilən siyasətlə formalaşmış tamamilə yeni milli və beynəlxalq kontekstlərə şahidlik edir.

Bu il Azərbaycan Respublikası işğal olunmuş torpaqlarını tam azad edib və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində bütün ərazisi üzərində suverenliyini bərpa edib. 2020-ci ildə Vətən müharibəsində qazanılan şanlı Qələbə nəticəsində əldə olunan nailiyyətlər 2023-cü ilin sentyabrında aparılan lokal xarakterli antiterror tədbirləri ilə yekunlaşdı.

Bu gün ölkədə işğaldan azad edilmiş torpaqların intensiv şəkildə genişmiqyaslı yenidən qurulması və bərpası, insanların öz doğma yurdlarına qayıtması, bu geniş ərazilərin milli və regional iqtisadiyyata yenidən inteqrasiyası istiqamətində proses sürətlə gedir.

Beləliklə, 2023-cü il respublika tarixində müstəqil Azərbaycanın 30 illik bir dövrünün başa çatması, ölkənin ərazilərinin işğaldan tam azad edilməsi və suverenliyinin bərpası ilə müşayiət olunan Zəfərlə yekunlaşan bir il kimi qalacaq. Bu kontekstdə rəmzi xarakter daşıyan bir cəhət də odur ki, bu il Azərbaycan həm də ölkənin mövcudluğunun sual altında olduğu kritik bir zamanda Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışının 30-cu ildönümünü qeyd etdi. Yeni Azərbaycanın tarixində bu möhtəşəm 30 il həm də Azərbaycanın qazandığı qələbələrin və ümumi uğurların ilkin şərti və təminatçısı olan milli birliyin, davamlılığın, Azərbaycan rəhbərliyinin ardıcıllıqla həyata keçirdiyi siyasi xəttin əhəmiyyətini göstərir. Bu il Ümummilli Liderin 100 illik yubileyinin qeyd olunması yuxarıda deyilənlərin hamısına xüsusi məna verir.

Ölkə öz inkişafında yeni dövrə qədəm qoyduğu bir dönəmdə biz də Sizin regionda ədalətli və davamlı sülhə nail olunması istiqamətində göstərdiyiniz ardıcıl və yorulmaz səylərinizi yüksək qiymətləndiririk. Biz Azərbaycanın çoxtərəfli əməkdaşlıq çərçivəsində mühüm regional təşəbbüslər və layihələr həyata keçirməklə bölgədə sabitliyə, təhlükəsizliyə və inkişafa verdiyi töhfəni yüksək dəyərləndiririk. Fəaliyyətinizdə Sizə daha böyük uğurlar arzulayır, həmçinin inklüziv regional təşəbbüslər və qlobal əhəmiyyətli layihələri həyata keçirməklə bölgənin potensialının tam şəkildə ortaya çıxarılması və istifadə edilməsi üçün göstərilən səylərə töhfə verməyə hazır olduğumuzu bildiririk.

Azərbaycanı hərtərəfli islahatları, iqtisadi və sosial həyatın bütün sahələrinin modernləşdirilməsini və demokratikləşməsini, eləcə də xalqın rifahının daim inkişaf edən qlobal mühitin çağırışlarına uyğun daha da yaxşılaşdırılmasını, ölkənin aparıcı beynəlxalq mövqeyinin və rolunun gücləndirilməsini özündə əks etdirən yeni inkişaf mərhələsinə çıxarmaq missiyanızda Sizə daha böyük uğurlar arzulayırıq.

Zati-aliləri, bu əlamətdar gün və müstəqil Azərbaycanın inkişafındakı tarixi nailiyyətləriniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz enerji, xalqın və ölkənin rifahı naminə yeni böyük qələbələr arzulayırıq.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Sizin uzaqgörənliyiniz və müdrikliyiniz, müstəsna səriştəniz, yüksək fədakarlığınız, durmadan artan milli lider nüfuzunuz və insanları ruhlandırmaq bacarığınız ən yüksək hörmətə və rəğbətə layiqdir.

Əminəm ki, Sizin istedadlı rəhbərliyiniz bundan sonra da Azərbaycanın tərəqqisinə, həmçinin Azərbaycan ilə Rusiya arasında qarşılıqlı hörmətə əsaslanan faydalı və səmimi dostluq münasibətlərinin möhkəmlənməsinə kömək edəcək.

Həyatınızın bu əlamətdar günündə ən cəsarətli planlarınızın reallaşması üçün Sizə möhkəm cansağlığı, tükənməz enerji və güc diləyirəm.

Sizə və gözəl ailənizə, bütün ölkənizə uğurlar və sülh arzu edirəm.

*Hörmətlə,*

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Azərbaycan Respublikasının parlamenti ilə dostluq qrupunun əlaqələndiricisinin müavini***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və uğurlar arzulayır, ən yüksək ehtiramımı ifadə edirəm.

Siz dahi atanızın layiqli varisi və ideyalarının böyük davamçısı kimi onun arzularının reallaşmasına artıq nail olmusunuz. Azərbaycanın ən doğru inkişaf yolunu, onun beynəlxalq aləmdə siyasi, iqtisadi və sosial mövqeyini müəyyən etmisiniz, ölkənin suverenliyi tam təmin olunub.

Siz təcrübəli, qətiyyətli, uzaqgörən və nəcib dövlət xadimisiniz. Əminəm ki, Siz gələcəkdə də bu yolda - ən mürəkkəb məsələlərin həllində və Azərbaycanın maraqları naminə onun imkanlarının genişləndirilməsində, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasında öz səylərinizi və məharətinizi əsirgəməyəcəksiniz.

Aramızda olan mehriban münasibətləri yüksək qiymətləndirirəm, bu münasibətlərin konstruktiv məzmunundan məmnunam. Sizinlə və mehriban ailənizlə görüşlər daim məni ürəkdən sevindirir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, müvəffəqiyyətlər diləyir, ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri, Beynəlxalq məsələlər komitəsinin sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.

Sizin həyat yolunuz quruculuqdur və bu, bütün qüvvənizi və fərqli liderlik bacarığınızı həsr etdiyiniz xalqa xidmətlə sıx bağlıdır.

Sizin bütün daxili resursları birləşdirərək ölkənin inkişafına yönəltmək bacarığınız ictimaiyyətə zamanın çağırışlarının öhdəsindən uğurla gəlməyə şərait yaradan mühüm amildir. Respublikada Sizin rəhbərliyinizlə həyata keçirilən irimiqyaslı iqtisadi və humanitar layihələr onun tərəqqisi üçün geniş imkanlar yaradır.

Rusiyada Azərbaycana xüsusi səmimiyyətlə və sevgi ilə yanaşırlar. Siz dövlətlərarası sazişlərin praktiki icrasına yardım etməklə ölkələrimizin xalqları arasında əlaqələrin möhkəmlənməsi üçün Rusiya və Azərbaycanın uğurlu gələcəyinin zəmanətinə çevriləcək möhkəm təməl yaradırsınız.

TASS öz fəaliyyətində respublikanın həyatında baş verən əsas hadisələrin işıqlandırılmasına mühüm diqqət ayırır. Ümid edirəm ki, bizim informasiya əməkdaşlığımız keyfiyyətcə yeni müstəviyə çıxacaq.

İcazə verin, Sizə doğum gününüzdə dərin ehtiramımı ifadə edim, möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqının rifahı naminə yeni-yeni müvəffəqiyyətlər arzulayım.

*Hörmətlə,*

***Andrey KONDRAŞOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***

Əziz İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə xüsusi ehtiramla təbrik edirəm. Sizə möhkəm cansağlığı, ailə səadəti, tükənməz enerji, ölkənin və xalqın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Tələbəlik illərindən dostlarınız kimi, Sizin rəhbərliyinizlə Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq arenada qazandığı uğurlarla fəxr edirik. Bu nailiyyətlər Azərbaycan xalqının qazandığı tarixi qələbələrdə özünün daha parlaq təzahürünü tapıb. Sizin yürütdüyünüz müdrik və düşünülmüş siyasət sayəsində bu qələbələrin əsasları qoyuldu. Ali Baş Komandan kimi istedadınız, Azərbaycanın əsgər və zabitlərinin qəhrəmanlığı isə ölkənin əzəli tarixi torpaqlarının azad olunması və əsl sahiblərinə qaytarılması ilə nəticələndi. Sizin rəhbərliyinizlə azad edilmiş ərazilərin qısa müddətdə bərpası göstərdi ki, Qarabağ Azərbaycanın incisinə çevrilir.

İcazə verin, Sizə bir daha ən xoş arzularımı bildirim, planlarınızın və ideyalarınızın tezliklə reallaşmasını arzulayım.

*Hörmətlə,*

***Yuri ÇAXUNAŞVİLİ,***
***"SOCAR Energy Georgia" MMC-nin baş direktorunun müşaviri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq.

Biz ölkənizə və onun vətəndaşlarına yorulmaz xidmətinizə görə Sizə minnətdarlığımızı bildiririk və hər zaman Sizi dəstəkləyəcəyik.

Sizə həm şəxsi həyatınızda, həm də ali dövləti fəaliyyətinizdə uğurlar və xoşbəxtlik dolu bir il diləyirik.

*Hörmətlə,*

***Cuzeppe KANİLİA,***
***Napoli-Bakı Assosiasiyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Doğum gününüz mübarək.

Bu əlamətdar gündə Azərbaycan xalqı və bütün dünyadan olan insanlara qoşularaq Sizə - görkəmli dövlət xadimi, sadiq beynəlmiləlçi və mərhəmətli insana xoşbəxtlik arzulamaqdan şərəf duyuram.

Cənab Prezident, Sizin fəaliyyətinizin və ümumbəşəri dəyərlərə sadiqliyinizin dünyamız üçün nə demək olduğunun şahidi olmuşam. Azərbaycan cəmiyyəti üçün əsas dəyərlərdən olan tolerantlığın və dinc yanaşı yaşamağın inkişafına verdiyiniz böyük töhfəyə görə Sizi alqışlayıram.

Möhtərəm cənab Prezident, əmin ola bilərsiniz ki, bəşəriyyətə sədaqətinizin və möhtəşəm təvazökarlığınızın izi tarixdə əbədi qalacaq. İnanıram ki, Siz bundan sonra da uzun illər müdriklik və ümid nümayiş etdirərək hamımızı birlikdə daha yaxşı bir dünya yarada biləcəyimizə inanmağa ruhlandıracaqsınız.

Tanrı Sizə möhkəm cansağlığı, uzun illər sevinc dolu xoşbəxtlik nəsib etsin!

*Dərin hörmət, ehtiram və dostluq salamları ilə,*

***Ravvin Mark ŞNAYER,***
***ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz mübarək olsun! Sizin üçün bu əlamətdar gündə ən səmimi təbriklərimi qəbul edin.

Siz uzun illər ərzində ölkənin həyatında sabitliyin və rifahın təminatçısı, Azərbaycan xalqının etibarlı müdafiəçisi, dünyada gedən iqtisadi və siyasi proseslərin fəal iştirakçısı, Rusiyanın etibarlı tərəfdaşısınız. Sizin müdrik siyasətiniz, strateji düşüncə tərziniz, məqsədyönlülüyünüz və uzaqgörənliyiniz artıq çoxdandır ki, ən yüksək şəkildə qiymətləndirilib, Azərbaycan xalqı tərəfindən ehtiram və minnətdarlıqla, dünya ictimaiyyətinin rəğbəti ilə qarşılanıb.

Sizə səmimi-qəlbdən xoşbəxt həyat və ən başlıcası, uzun ömür arzulayıram. Qoy həyatınız sevincli hadisələrlə, xeyirxah əməllərlə və böyük nailiyyətlərlə zənginləşsin!

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Mixail QUSMAN,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurası adından təbrikimizi qəbul edin.

Dərin biliyiniz və yüksək peşəkarlığınız Sizə öz dövlətinizin maraqlarını müdafiə etmək, açıq siyasi dialoq aparmaq imkanı verir. Sizin ardıcıl fəaliyyətiniz, sözsüz ki, respublikanın sosial-iqtisadi inkişafına və onun Müstəqil Dövlətlər Birliyi çərçivəsində çoxşaxəli əməkdaşlığın möhkəmlənməsindəki ənənəvi fəal iştirakına kömək edir.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət, firavanlıq və Azərbaycan xalqının rifahı naminə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli Prezident İlham Əliyev.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm və neçə-neçə belə gözəl günlər qeyd etməyinizi arzulayıram.

1997-ci ilin yayında atanızla Nyu Yorka səfəriniz zamanı Yəhudi Təşkilatları Prezidentlərinin Konfransı çərçivəsində Sizinlə qısa da olsa görüşdük. Nyu Yorkdakı görüşümüzdən cəmi bir neçə ay əvvəl - 1997-ci il mayın 23-də isə mən Ümummilli Lider Heydər Əliyevlə Bakıda görüşmüşdüm. Atanız Azərbaycanın möhtəşəm mədəniyyəti ilə bağlı fikirlərini bölüşmək üçün məni iş otağına dəvət etdi. Ümummilli Lider öyrənmişdi ki, mən Bakıda yenicə təmir edilmiş Opera və Balet Teatrının açılışında çıxış etmək üçün gəlmişəm və mən ömrünü Azərbaycanın musiqi mədəniyyətinin öyrənilməsinə və təbliğinə həsr etmiş azsaylı qeyri-azərbaycanlılardanam. Mən 1973-cü ildən kamança və tarda ifa edirəm və bu son 50 il ərzində ABŞ, Kanada, Böyük Britaniya, Avropada, İsraildə və təbii ki, Azərbaycanın ən yaxşı məkanlarında çoxsaylı konsertlərim olub.

Fürsətdən istifadə edərək ölkənizin suverenliyinin tam bərpası münasibətilə Sizi təbrik edirəm. Şuşanın işğaldan azad olunduğunu eşitdiyim gün həyatımın ən xoşbəxt günlərindən biri idi. 2022-ci ilin iyul ayında Azərbaycan və onun musiqi mədəniyyəti, dünyada bənzəri olmayan və daha çox tanınmağa layiq olan Azərbaycan xalqı haqqında yeni sənədli film çəkmək məqsədilə bu gözəl şəhərə səfər etdim.

Ümidvaram ki, nə vaxtsa biz görüşəcəyik və nailiyyətləriniz münasibətilə Sizi şəxsən təbrik edəcəyəm. Azərbaycanın ənənəvi mədəniyyəti, incəsənətinin təbliği və dəstəklənməsi istiqamətində gördüyü böyük işlərə görə şəxsən birinci xanım və Birinci vitse-prezident Mehriban Əliyevanı da təbrik etmək istəyirəm. Bəlkə də, birinci xanım 2006-cı ildə Vaşinqtonda səfərdə olarkən mənim kimi Azərbaycan mədəniyyətinin pərəstişkarı olan qeyri-azərbaycanlı şəxslərin təqdimat mərasimində tanış olduğumuzu xatırlayır.

*Hər ikinizə xoş arzularla,*

***Cefri VERBOK,***
***Amerika Muğam Cəmiyyətinin prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə Novosibirsk vilayəti ərazisində yaşayan bütün azərbaycanlılar adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan Respublikasının Prezidenti vəzifəsində ölkə iqtisadiyyatının dayanıqlılığının artırılması, dövlətin ərazi bütövlüyünün təmin edilməsi və qorunub saxlanılması, sülh və anlaşmanın möhkəmləndirilməsi üzrə fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

Biz, soydaşlar, yaşadığımız ölkədən asılı olmayaraq, Sizin dünya səviyyəli siyasətinizlə fəxr edir və qürur duyuruq. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluğun və qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində səylərimizi əsirgəmirik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm. Biz daim sizinləyik.

*Hörmətlə,*

***Mayis MƏMMƏDOV,***
***Rusiya Federasiyası Novosibirsk vilayəti Qanunverici Məclisinin sədr müavini***

❖ ❖ ❖

## Azərbaycan qeyri-hökumət təşkilatlarının Prezident İlham Əliyevin doğum günü münasibətilə müraciəti

Azərbaycanın qeyri-hökumət təşkilatları Prezident İlham Əliyevin doğum günü münasibətilə müraciət ünvanlayıblar.

AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir:

"Hörmətli cənab Prezident! Müzəffər Ali Baş Komandan!

Biz - Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Sizə milli lider olaraq müraciət edirik. Siz bütün xalqın, dünya azərbaycanlılarının məhəbbətini qazanaraq, milli liderliyə Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə tam nail olmaqla, tarixin ən qüdrətli Azərbaycan dövlətini yaratmaqla yüksəlmisiniz. Azərbaycan Bayrağını Şuşada, Xankəndidə, Xocalıda ucaltmısınız!

2003-cü ildən bu yana Azərbaycan xalqı bütün prezident seçkilərində yalnız Sizi seçib, öz gələcəyini yalnız Sizə etibar edib. Siz verdiyiniz bütün vədləri yerinə yetirmisiniz.

Siz Azərbaycan xalqını ən böyük arzularına qovuşduran, milli idealına çatdıran şəxsiyyət kimi vətəndaş cəmiyyəti üçün də doğmasınız. QHT-lərin fəaliyyəti ilə bağlı çağırışlarınız, fikirləriniz, Azərbaycan QHT-lərinə ictimai etimadı artırır, vətəndaş cəmiyyətinin qərarların qəbulu proseslərində fəal iştirakını təşviq edir.

Biz Sizin dəstəyinizdən ruhlanaraq məsələlərin üzərinə daha qətiyyətlə gedirik, cəmiyyətin inkişafı üçün təşəbbüslərin reallaşması işində əzmkarlıq nümayiş etdirməkdən çəkinmirik. Yaratdığınız sərbəst və azad mühit vətəndaş cəmiyyəti üçün böyük töhfədir.

Bu əlamətdar gündə fürsətdən istifadə edərək, fədakar fəaliyyətiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Biz hər gün ən müxtəlif kateqoriyadan olan insanların içərisindəyik. Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları adından bildiririk ki, Sizin liderliyinizlə Azərbaycanın böyük qələbələrinin davam etdirilməsi hər bir azərbaycanlının ümumi arzusu, istəyidir.

Biz Sizinlə - qalib xalqın qalib lideri ilə fəxr edirik! Doğum gününüz mübarək!"

# "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci, 17-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711, № 8, maddə 894, № 11, maddə 1206, № 12, maddə 1335; 2022, № 6, maddə 580, № 8, maddələr 824, 828, 833; 2023, № 1, maddələr 7, 22, № 3, maddə 333, № 4, maddə 445, № 6, maddə 742, № 7, maddələr 881, 900, № 8 (I kitab), maddə 1094) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 954.3-cü maddəyə "üzərində" sözündən sonra "qanunla və" sözləri əlavə edilsin;

1.2. 959-cu maddə üzrə:

1.2.1. 959.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"959.1. Bank müştərinin hesabına daxil olmuş pul vəsaitini həmin əməliyyat günündən (bankın müştəri sərəncamlarının qəbulu və bank əməliyyatlarının aparılması üçün müəyyən etdiyi iş vaxtından) gec olmayaraq hesaba salmalıdır, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın.";

1.2.2. 959.2-ci maddədə "sənədinin" sözü "sərəncamının" sözü ilə əvəz edilsin;

1.3. 961.1-ci maddədə "Müştəri" sözü "Bank hesabı müqaviləsində nəzərdə tutulduğu halda, müştəri" sözləri ilə əvəz edilsin;

1.4. 965-ci maddə üzrə:

1.4.1. 965.2.1-ci və 965.2.2-ci maddələrdə "sənədlər və yaxud bu sənədlər əsasında verilən icra sənədi" sözləri "ödəniş sərəncamları və yaxud bu tələblərlə bağlı icra sənədləri əsasında verilən ödəniş sərəncamları" sözləri ilə əvəz edilsin;

1.4.2. 965.2.3-cü, 965.2.4-cü və 965.2.6-cı maddələrdə "sənədləri" sözü "sərəncamları" sözü ilə əvəz edilsin;

1.4.3. 965.2.5-ci maddəyə "sənədi" sözündən sonra "əsasında verilən ödəniş sərəncamı" sözləri əlavə edilsin;

1.4.4. 965.3-cü maddədə "sənədlərin" sözü "ödəniş sərəncamlarının" sözləri ilə əvəz edilsin;

1.5. 971.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"971.3. Nağdsız hesablaşmalar banklar və digər ödəniş xidməti təchizatçıları, mərkəzi depozitar tərəfindən qanuna uyğun olaraq aparılır.";

1.6. 975.3-cü maddənin birinci cümləsində "ödəyicinin tələbi ilə ona" sözləri "ödəyiciyə" sözü ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ödəniş tapşırığının icrasından sonra məlumatlandırma ilə bağlı digər tələblər "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.";

1.7. aşağıdakı məzmunda 1078-23.18-1-ci maddə əlavə edilsin:

"1078-23.18-1. "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası Qanununun 45.5-ci maddəsinə əsasən hesablaşma agenti klirinq üzrə ödəniş sistemində hesablaşmaların başa çatdırılmasını nağd pul, dövlət istiqrazları və ya Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən buraxılmış qiymətli kağızların girovu mexanizmlərinin tətbiqi ilə təmin etdikdə, bu cür girov maliyyə girovu hesab olunur.".

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828, № 12, maddələr 1363, 1373; 2023, № 1, maddə 39, № 2, maddə 207, № 4, maddə 445, № 6, maddə 755) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 195-1.1-ci maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

2.2. 205-ci maddə üzrə:

2.2.1. adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 205. **Saxta ödəniş alətlərini və ya qiymətli kağız sayılmayan ödəniş sənədlərini hazırlama, əldə etmə və ya satma";**

2.2.2. 205.1-ci maddədə "Qiymətli kağız sayılmayan saxta kredit və ya hesab kartlarını və ya başqa" sözləri "Saxta ödəniş alətlərini və ya qiymətli kağız sayılmayan" sözləri ilə əvəz edilsin;

2.3. 303.1-ci maddədə "bank və ya digər kredit təşkilatının" sözləri ", o cümlədən ödəniş əməliyyatlarının bank və ya digər ödəniş xidməti təchizatçısının" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832, № 12, maddələr 1376, 1385, 1400; 2023, № 1, maddələr 1, 10, 14, 23, 36, № 2, maddə 158, № 3, maddə 336, № 4, maddələr 445, 467, № 7, maddə 902, № 8 (I kitab), maddələr 1095, 1123, 1136) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 13.2-ci maddə üzrə:

3.1.1. 13.2.14.2-ci maddədə "tədiyə vasitələri" sözləri "ödəniş alətləri" sözləri ilə əvəz edilsin;

3.1.2. 13.2.14.3-cü maddədə "tədiyə" sözü "ödəniş" sözü ilə əvəz edilsin;

3.1.3. 13.2.16.14-1-ci maddə üzrə:

3.1.3.1. birinci abzasa "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.1.3.2. ikinci abzas 13.2.16.14-2-ci maddə hesab edilsin və həmin maddənin birinci abzasında "bu maddənin" sözləri "bu Məcəllənin 13.2.16.14-1-ci maddəsinin" sözləri ilə əvəz edilsin və həmin maddənin 3-cü abzasına "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.2. 16-cı maddə üzrə:

3.2.1. 16.1.9-cu maddədə hər iki halda "bank" sözü "ödəniş xidməti təchizatçılarının" sözləri ilə əvəz edilsin;

3.2.2. 16.1.11-ci maddədə "kredit təşkilatlarında və ya qeyri-rezident bank əməliyyatı aparan şəxslərdə" sözləri "ödəniş xidməti təchizatçılarında" sözləri ilə əvəz edilsin;

3.2.3. 16.1.11-6.1-ci maddədə "bank əməliyyatlarını həyata keçirən şəxslər" sözləri "ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin;

3.2.4. 16.11-ci maddədə "banka və ya bank əməliyyatlarını həyata keçirən digər şəxslərə" sözləri "ödəniş xidməti təchizatçılarına" sözləri ilə əvəz edilsin;

3.3. 23.1.7-ci maddədə "banklara və ya digər kredit təşkilatlarına" sözləri "ödəniş xidməti təchizatçılarına" sözləri ilə əvəz edilsin;

3.4. 30-cu maddə üzrə:

3.4.1. 30.6.7-1-ci maddəyə "İnvestisiya fondları haqqında" sözlərindən sonra ", "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" sözləri əlavə edilsin;

3.4.2. 30.6-2-ci maddədə "bank əməliyyatı aparan şəxslərə" sözləri "ödəniş xidməti təchizatçılarına" sözləri ilə əvəz edilsin;

3.5. 34.7.1-ci maddəyə "bank və" sözlərindən sonra "digər ödəniş," sözləri əlavə edilsin və həmin maddədə "bank idarələri" sözləri "ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin;

3.6. 35.1-ci maddəyə birinci halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri və "kredit" sözündən sonra "və elektron pul" sözləri əlavə edilsin;

3.7. 58-ci maddə üzrə:

3.7.1. 58.3-cü maddəyə hər iki halda"kredit" sözündən sonra "və elektron pul" sözləri əlavə edilsin;

3.7.2. 58.11-ci maddədə "kredit təşkilatlarında və ya bank əməliyyatı aparan qeyri-rezident şəxslərdə" sözləri "ödəniş xidməti təchizatçılarında" sözləri ilə əvəz edilsin;

3.8. 60-cı maddə üzrə:

3.8.1. adına "bank" sözündən əvvəl "elektron pul təşkilatlarına," sözləri əlavə edilsin;

3.8.2. 60.1-ci maddədə "təşkilatları və" sözləri "və elektron pul təşkilatları," sözləri ilə əvəz edilsin;

3.8.3. 60.2-ci maddəyə "təşkilatına" sözündən sonra ", habelə elektron pul təşkilatına" sözləri əlavə edilsin;

3.9. 65-ci maddə üzrə:

3.9.1. 65.2-ci maddənin birinci cümləsinə "kredit" sözündən sonra "və ya elektron pul" sözləri əlavə edilsin, ikinci cümləsinə "kredit" sözündən sonra "və ya elektron pul" sözləri əlavə edilsin və həmin cümlədə "bank hesablarında" sözləri "hesablarda" sözü ilə əvəz edilsin;

3.9.2. 65.2.1-ci və 65.2.2-ci maddələrə "kredit" sözündən sonra "və ya elektron pul" sözləri əlavə edilsin;

3.9.3. 65.3-cü maddədə "bank və ya digər kredit" sözləri "kredit və ya elektron pul" sözləri ilə əvəz edilsin;

3.9.4. 65.4-cü maddədə "bankda və ya digər kredit" sözləri "kredit və ya elektron pul" sözləri ilə əvəz edilsin;

3.9.5. 65.6-cı maddədə "bank və digər kredit" sözləri "kredit və elektron pul" sözləri ilə əvəz edilsin;

3.9.6. 65.7-ci maddənin birinci cümləsində "bank, digər kredit" sözləri "kredit və elektron pul" sözləri ilə, ikinci cümləsində "bank və ya digər kredit" sözləri "kredit və elektron pul" sözləri ilə əvəz edilsin;

3.9.7. 65.7-1-ci maddənin birinci cümləsinə birinci halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin, həmin cümlədə ikinci halda "bank" sözü "əməliyyat" sözü ilə, üçüncü halda "bank" sözü "kredit və ya elektron pul təşkilatı" sözləri ilə əvəz edilsin, ikinci (hər iki halda) və üçüncü (hər iki halda) cümlələrində "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin, dördüncü cümləsində "Bankın" sözü "Kredit və ya elektron pul təşkilatının" sözləri ilə, "bankın" sözü "kredit və ya elektron pul təşkilatının" sözləri ilə əvəz edilsin;

3.9.8. 65.8-ci maddənin birinci abzasında "bank və ya kredit" sözləri "kredit və ya elektron pul" sözləri ilə, "banklara və ya kredit" sözləri "kredit və ya elektron pul" sözləri ilə əvəz edilsin və ikinci abzasına "kredit" sözündən sonra "və elektron pul" sözləri əlavə edilsin;

3.9.9. 65.8-1-ci maddəyə "kredit" sözündən sonra "və ya elektron pul" sözləri əlavə edilsin;

3.10. 67.1.7-ci maddəyə hər iki halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.11. 75-ci maddə üzrə:

3.11.1. 75-ci maddənin adına "təşkilatlarının" sözündən sonra ", habelə elektron pul təşkilatlarının" sözləri əlavə edilsin;

3.11.2. 75.0-cı maddənin birinci abzasına "təşkilatları" sözündən sonra ", habelə elektron pul təşkilatları" sözləri əlavə edilsin;

3.11.3. 75.0.1-ci maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.12. 76-cı maddə üzrə:

3.12.1. adına "təşkilatları" sözündən sonra ", habelə elektron pul təşkilatları" sözləri əlavə edilsin;

3.12.2. 76.1-ci maddəyə birinci halda"kredit" sözündən sonra "və ya elektron pul" sözləri əlavə edilsin və həmin maddədə "bankın və ya kredit" sözləri "kredit və ya elektron pul" sözləri ilə, "bank hesabları və" sözləri "hesabları və hesab" sözləri ilə əvəz edilsin;

3.12.3. 76.1-1-ci maddədə "bank əməliyyatları aparan şəxslər" sözləri "kredit və ya elektron pul təşkilatları" sözləri ilə əvəz edilsin;

3.12.4. 76.2-ci maddənin birinci abzasına "Kredit" sözündən sonra "və ya elektron pul" sözləri əlavə edilsin;

3.12.5. 76.3-cü maddənin birinci və ikinci cümlələrinə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.13. 85.9.1-ci maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.14. 87.5-ci maddədə "bank" sözü "ödəniş" sözü ilə əvəz edilsin;

3.15. 89.15-ci maddənin ikinci abzasının birinci cümləsində "banka və ya digər kredit" sözləri "kredit və ya elektron pul" sözləri ilə əvəz edilsin;

3.16. 90-cı maddə üzrə:

3.16.1. 90.3.3.4 - 90.3.5.6-cı, 90.3.7-ci, 90.3.8.1-ci maddələrə, 90.3.20.8-ci maddənin ikinci cümləsinə, 90.3.22-ci maddənin birinci cümləsinə (ikinci halda) "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.16.2. 90.3.20.10-cu maddənin ikinci cümləsində, 90.3.22-ci maddənin birinci cümləsində (birinci halda), 90.4-cü maddənin birinci abzasının ikinci cümləsində "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin;

3.17. 125.1-1-ci maddədə "bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçısı və ya xarici ödəniş xidməti təchizatçısının yerli filialı" sözləri ilə əvəz edilsin;

3.18. 132.1-ci maddəyə "bankda" sözündən sonra ", digər kredit və ya elektron pul təşkilatında" sözləri əlavə edilsin;

3.19. 133.2-ci maddəyə "bank" sözündən sonra ", digər kredit və ya elektron pul təşkilatı" sözləri əlavə edilsin;

3.20. 150-ci maddə üzrə:

3.20.1. 150.1.11-ci maddəyə birinci halda "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin maddədə "bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçısı və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı" sözləri ilə əvəz edilsin;

3.20.2. 150.1.12-ci maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin və həmin maddədə "banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçıları və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı" sözləri ilə əvəz edilsin;

3.20.3. 150.1.16-cı maddədə "bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru" sözləri "ödəniş xidməti təchizatçıları və ya xarici ödəniş xidməti təchizatçısının Azərbaycan Respublikasındakı filialı" sözləri ilə əvəz edilsin;

3.20.4. 150.3-1-ci maddənin birinci abzasında "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin;

3.20.5. 150.3-3-cü maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.20.6. 150.5.1-ci və 150.5.3-cü maddələrdə "bank" sözü "ödəniş xidməti təchizatçısı" sözləri ilə əvəz edilsin;

3.21. 166.1.1-ci maddədə "bankda onun" sözləri "onun bank və digər ödəniş" sözləri ilə əvəz edilsin;

3.22. 169.3-cü maddənin üçüncü abzasının birinci və ikinci cümlələrində "bank və ya xarici bankın" sözləri "ödəniş xidməti təchizatçısı və xarici ödəniş xidməti təchizatçısının" sözləri ilə əvəz edilsin;

3.23. 175-ci maddə üzrə:

3.23.1. 175.1-ci maddənin birinci cümləsinə (hər iki halda) və ikinci cümləsinə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.23.2. 175.2-ci və 175.7-ci maddələrə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.24. 177.4-cü və 212.1-ci maddələrdə "bank" sözü "əməliyyat" sözü ilə əvəz edilsin;

3.25. 220.12-ci maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

3.26. 221.4.7-ci maddənin ikinci abzasının birinci cümləsindən "bank" sözü çıxarılsın və ikinci cümləsində "Bank ödəniş" sözləri "Ödəniş" sözü ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466, № 6, maddələr 743, 754, № 7, maddələr 905, 907, № 8 (I kitab), maddələr 1096, 1122, 1128; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

*Ardı 10-cu səh.*

# "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 9-cu səh.*

4.1. 411-ci maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 439-2-ci maddə əlavə edilsin:

**"Maddə 439-2. Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında qanunvericiliyin pozulması**

439-2.1. Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında qanunvericiliyin pozulmasına, yəni:

439-2.1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının apardığı reyestrdə olmayan ödəniş agenti vasitəsilə ödəniş xidmətlərinin göstərilməsinə;

439-2.1.2. ödəniş xidməti təchizatçıları, o cümlədən xarici ödəniş xidməti təchizatçılarının yerli filialları tərəfindən ödəniş agentinin cəlb edilməsi,ödəniş agenti tərəfindən ödəniş xidmətlərinin göstərilməsi, o cümlədən ödəniş agenti ilə bağlanan müqavilənin şərtlərinə dair tələblərin pozulmasına;

439-2.1.3. xarici ödəniş təşkilatı, elektron pul təşkilatı və ödəniş sistemi operatorunun yerli filial açmadan ölkədə fəaliyyət göstərməsinə dair bağlanılmış müqavilə barədə məlumatın ödəniş xidməti təchizatçıları tərəfindən qanunla müəyyən edilmiş müddətdə təqdim edilməməsinə;

439-2.1.4. banklar, xarici bankların yerli filialları və poçt rabitəsinin milli operatorutərəfindən elektron pulun emitenti, ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidməti təchizatçısı və hesab üzrə məlumat xidməti təchizatçısı kimi fəaliyyət göstərəcəyi barədə məlumatın Azərbaycan Respublikasının Mərkəzi Bankına qanunla müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə -

vəzifəli şəxslər min manatdan üç min manatadək, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

439-2.2. Elektron pul təşkilatı, o cümlədən xarici elektron pul təşkilatının yerli filialı tərəfindən pul vəsaitlərinin təhlükəsizliyinə dair qanunla müəyyən olunmuş tələblərin pozulmasına görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək miqdarda, hüquqi şəxslər yeddi min manatdan on min manatadək məbləğdə cərimə edilir.

439-2.3. Ödəniş xidməti təchizatçısı və ödəniş sistemi operatoru, o cümlədən xarici ödəniş xidməti təchizatçısının və xarici ödəniş sistemi operatorunun yerli filialıtərəfindən əməliyyat və ya təhlükəsizlik insidentləri haqqında məlumatların Azərbaycan Respublikasının Mərkəzi Bankına qanunla müəyyən edilmiş müddətdə təqdim edilməməsinə, yaxud düzgün təqdim edilməməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək miqdarda, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

439-2.4. Ödəniş təşkilatı, elektron pul təşkilatı və ödəniş sistemi operatoru, o cümlədən xarici ödəniş təşkilatı, xarici elektron pul təşkilatı və xarici ödəniş sistemi operatorunun yerli filialıtərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankına qanunla müəyyən edilmiş hesabatların təqdim edilməməsinə, yaxud düzgün təqdim edilməməsinə görə-

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.".

4.3. 547.2-ci maddədə "və bank" sözləri ", bank və digər ödəniş" sözləri ilə, "müvəkkil banklar" sözləri "ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 114; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683, № 12, maddə 736; 2002, № 5, maddə 241; 2003, № 1, maddə 21; 2004, № 3, maddə 133; 2005, № 8, maddə 684; 2007, № 11, maddə 1053; 2008, № 3, maddə 152; 2009, № 7, maddə 517; 2010, № 11, maddə 938; 2011, № 4, maddə 246; 2019, № 1, maddə 25, № 6, maddə 993; 2023, № 8 (I kitab), maddə 1108) 13-cü maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. doqquzuncu - on ikinci abzasların sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda on üçüncü abzas əlavə edilsin:

"qanunla müəyyən edilmiş hallarda auditin aparılması zamanı aşkar olunan pozuntu, nöqsan və çatışmazlıqlar barədə qanunla müəyyənləşdirilmiş orqana (quruma) məlumat vermək və qanunda nəzərdə tutulmuş hallarda digər vəzifələri icra etmək.".

**Maddə 6.** "Valyuta tənzimi haqqında"Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 737; 2003, № 1, maddə 1; 2006, № 3, maddə 225; 2007, № 6, maddə 562, № 12, maddə 1216; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1168; 2016, № 3, maddə 423; 2017, № 5, maddə 741, № 7, maddə 1291; 2018, № 5, maddə 847; 2019, № 1, maddə 30, № 3, maddə 387; 2021, № 12, maddə 1298; 2022, № 12, maddələr 1379, 1398; 2023, № 1, maddə 41, № 2, maddə 153, № 8 (I kitab), maddə 1101) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci maddənin birinci hissəsi üzrə:

6.1.1. 1-ci bəndin "b" və "v" abzasları aşağıdakı redaksiyada verilsin:

"b) Azərbaycan Respublikasında kredit təşkilatlarında və poçt rabitəsinin milli operatorunda, habelə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq digər ödəniş xidməti təchizatçılarında hesablarda manatda olan vəsait, o cümlədən manatda olan elektron pul;

c) Azərbaycan Respublikasından kənarda yerləşən kredit təşkilatlarında və digər ödəniş xidməti təchizatçılarında hesablarda manatda olan vəsait, o cümlədən manatda olan elektron pul.";

6.1.2. 3-cü bəndin "b" abzasına "vəsaitlər" sözündən sonra ", o cümlədən xarici valyutada olan elektron pul" sözləri əlavə edilsin;

6.1.3. 10-cu bəndin "ğ" abzasına "tərəfindən" sözündən sonra "qanuna uyğun olaraq" sözləri əlavə edilsin;

6.1.4. 11-ci bəndə "filialları," sözündən sonra "ödəniş təşkilatları, elektron pul təşkilatları, xarici ödəniş təşkilatları və elektron pul təşkilatlarının yerli filialları," sözləri əlavə edilsin;

6.2. 3-cü maddənin 2-ci hissəsinə "şirkətləri" sözündən sonra ", "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən lisenziya almış ödəniş təşkilatları, elektron pul təşkilatları, xarici ödəniş təşkilatları və xarici elektron pul təşkilatlarının yerli filialları" sözləri əlavə edilsin.

**Maddə 7.** "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 460; 2001, № 1, maddə 25, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2006, № 3, maddə 225; 2007, № 5, maddə 401; 2008, № 5, maddə 348; 2010, № 4, maddə 276; 2015, № 4, maddə 355, № 11, maddə 1260; 2017, № 3, maddə 332, № 5, maddə 736; 2018, № 4, maddə 652, № 12 (I kitab), maddə 2529; 2019, № 1, maddə 28, № 4, maddə 600, № 6, maddə 993; 2020, № 5, maddə 515,№ 12 (I kitab), maddə 1453; 2021, № 11, maddə 1206; 2023, № 4, maddə 447) aşağıdakı məzmunda 53-1-ci maddə əlavə edilsin:

**"Maddə 53-1. Ödəniş təşkilatı və elektron pul təşkilatının kreditor tələblərinin ödənilməsi xüsusiyyətləri**

"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq borclu ödəniş təşkilatının və elektron pul təşkilatının digər kreditorlarının tələbləri ödəniş xidməti istifadəçilərinin həmin təşkilatlarda olan pul vəsaitlərinə və həmin vəsaitlər hesabına əldə olunmuş aktivlərə yönəldilə bilməz. Bu vəsaitlər ödəniş xidməti istifadəçilərinin tələblərinin növbədənkənar ödənilməsinə yönəldilir.".

**Maddə 8.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4,№ 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddə 1485; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125, № 12, maddələr 1366, 1379, 1389; 2023, № 1, maddələr 11, 19, № 2, maddə 210, № 3, maddə 337, № 4, maddə 463, № 6, maddə 742, № 8 (I kitab), maddə 1126; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1012-VIQD və 1016-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 22.0.34-2-ci maddə əlavə edilsin:

| 22.0.34-2. Ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində fəaliyyət: | |
|---|---|
| 22.0.34-2.1. ödəniş təşkilatı fəaliyyəti | 2000 manat |
| 22.0.34-2.2. elektron pul təşkilatı fəaliyyəti | 3000 manat |
| 22.0.34-2.3. ödəniş sistemi operatoru fəaliyyəti | 2500 manat |

**Maddə 9.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017, № 11, maddələr 1323, 1335; 2021, № 12, maddə 1312; 2022, № 8, maddə 827; 2023, № 1, maddələr 2, 41, № 2, maddə 179, № 5, maddə 628, № 8 (I kitab), maddələr 1107, 1136) 15.9.3-1-ci maddəsinə "İnvestisiya fondları haqqında" sözlərindən sonra "və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" sözləri əlavə edilsin.

**Maddə 10.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021,№ 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298; 2022, № 12, maddələr 1379, 1399; 2023, № 1, maddə 41, № 2, maddə 159, № 3, maddə 334, № 4, maddə 456, № 5, maddə 621, № 7, maddə 913) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.0.10-cu maddəyə "vəsaitidir" sözündən sonra "(elektron pulun emissiya edilməsi üçün qəbul edilmiş pul vəsaitləri istisna olmaqla)" sözləri əlavə edilsin;

10.2. 32.1.4-cü və 32.1.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"32.1.4. klirinq, ödəniş xidmətləri, o cümlədən hesablaşma-kassa xidmətləri, ödəniş sistemlərinin təşkili, qiymətli kağızlar üzrə əməliyyatlardan irəli gələn ödənişlərin aparılması;

32.1.5. çek və veksellərin buraxılması;";

10.3. 36-cı maddə üzrə:

10.3.1. 36.1-ci maddədə "həmin Məcəlləyə" sözləri "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu, habelə həmin Məcəlləyə və Qanuna" sözləri ilə əvəz edilsin;

10.3.2. 36.2-ci maddənin birinci abzasının ikinci cümləsinə "Qanuna" sözündən sonra "və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri əlavə edilsin;

10.4. 38-ci maddə üzrə:

10.4.1. adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 38. **Ödəniş əməliyyatları və hesablaşmalar";**

10.4.2. 38.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"38.1. Banklar ödəniş əməliyyatlarını və hesablaşmaları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə Mərkəzi Bankın həmin Məcəlləyə və Qanunauyğun olaraq qəbul etdiyi normativ xarakterli aktlara, bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətlərinə və müvafiq müqavilələrə uyğun olaraq həyata keçirirlər.";

10.4.3. 38.3-cü maddə ləğv edilsin;

10.5. 41.2.17-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 41.2.18-ci maddə əlavə edilsin:

"41.2.18. ödəniş xidmətlərinin göstərilməsi zamanı - digər ödəniş xidməti təchizatçılarına, vəsait alana və ödəniş əməliyyatının icrasında iştirak edən digər şəxslərə.";

10.6. 47.1-ci maddəyə "bu Qanunun" sözlərindən sonra ", "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" sözləri əlavə edilsin.

**Maddə 11.** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 310; 2008, № 6, maddə 464; 2016, № 12, maddə 2013; 2019, № 1, maddə 36; 2023, № 2, maddə 193, № 4, maddə 453) 1.1.15-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"1.1.15. Elektron sənəd - elektron formada, o cümlədən mətn, səs, görüntü və ya audio-görüntü formasında saxlanılan kontent;".

**Maddə 12.** "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 604; 2007, № 5, maddə 442; 2008, № 11, maddə 958; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1148; 2016, № 3, maddə 409, № 10, maddə 1602; 2017, № 1, maddə 6, № 11, maddələr 1957, 1960, № 12 (I kitab), maddə 2223; 2018, № 7 (I kitab), maddə 1390; 2019, № 1, maddə 32; 2021, № 12, maddə 1298; 2022, № 12, maddə 1399; 2023, № 8 (I kitab), maddə 1099; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1015-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

12.1. 1.0.20-ci maddəyə "vəsaiti" sözündən sonra "(elektron pulun emissiya edilməsi üçün qəbul edilmiş pul vəsaitləri istisna olmaqla)" sözləri əlavə edilsin;

12.2. 13-1.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13-1.1.5. ödəniş xidmətlərinin göstərilməsi, ödəniş sistemlərinin təşkili, poçt çeklərinin buraxılması;";

12.3. 13-3-cü maddə üzrə:

12.3.1. 13-3.1-ci maddənin birinci cümləsinə "fəaliyyətini" sözündən sonra ", habelə ödəniş xidmətlərinin göstərilməsi üzrə fəaliyyəti" sözləri əlavə edilsin;

12.3.2. aşağıdakı məzmunda 13-3.2-1-ci maddə əlavə edilsin:

"13-3.2-1. Milli operatorun ödəniş xidmətləri, o cümlədən elektron pulun emissiyası və (və ya) ekvayrinq üzrə, habelə ödəniş sistemi sahəsində fəaliyyəti "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, bu Qanuna uyğun olaraq həyata keçirilir.".

**Maddə 13.** "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984; 2005, № 11, maddə 1004; 2007, № 6, maddə 562, № 10, maddə 938, № 12, maddə 1196; 2009, № 6, maddə 404, № 7, maddələr 507, 517; 2010, № 10, maddə 839; 2011, № 7, maddə 612; 2014, №11, maddə 1371; 2015, № 6, maddə 684, № 11, maddə 1296; 2016, № 3, maddə 405, № 11, maddə 1771; 2017, № 5, maddə 740, № 7, maddələr 1302, 1309, № 11, maddələr 1951, 1958; 2019, № 4, maddə 599, № 7, maddə 1180, № 8, maddə 1365; 2023, № 4, maddə 453, № 7, maddə 912) 46.1-ci maddəsinə "idarəçiləri," sözündən sonra "ödəniş təşkilatları, elektron pul təşkilatları, ödəniş sistemləri operatorları," sözləri əlavə edilsin.

**Maddə 14.** "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 79; 2009, № 6, maddə 400, № 7, maddə 517; 2016, № 3, maddələr 394, 421; 2017, № 7, maddə 1310; 2019, № 1, maddə 31; 2020, № 7, maddə 825, № 12 (I kitab), maddə 1437; 2023, № 2, maddə 163, № 4, maddə 451, № 8 (I kitab), maddə 1100) 2.1.1-ci maddəsinə "hesablanmış" sözündən əvvəl "bank tərəfindən elektron pulun emissiyası üçün qəbul edilmiş pul vəsaitləri istisna olmaqla," sözləri əlavə edilsin.

**Maddə 15.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72; 2013, № 7, maddə 789; 2014, № 10, maddə 1160; 2016, № 3, maddə 407, № 4, maddə 641; 2017, № 12 (I kitab), maddə 2228; 2018, № 5, maddə 844, № 6, maddə 1171; 2019, № 1, maddə 32, № 5, maddə 815; 2021, № 12, maddə 1298; 2023, № 2, maddə 166, № 3, maddə 334, № 4, maddə 452, № 7, maddə 914) 15.2.5-ci maddəsində "xidmətinin" sözü "və (və ya) ödəniş agenti xidmətlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 16.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662; 2021, № 6 (I kitab), maddə 551, № 7, maddə 701, № 12, maddələr 1315, 1329, 1339; 2022, № 5, maddə 426; 2023, № 2, maddələr 169, 205, 210, № 4, maddə 449, № 8 (I kitab), maddə 1125; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanunu) 3.4-cü maddəsinə "Valyuta tənzimi haqqında" sözlərindən sonra ", "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" sözləri əlavə edilsin.

**Maddə 17.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 37, № 8 (I kitab), maddə 1109) aşağıdakı dəyişikliklər edilsin:

17.1. 1.1.8-ci maddəyə "virtual" sözündən əvvəl "ödəniş təşkilatları (müstəsna olaraq ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidməti və (və ya) hesab üzrə məlumat xidməti göstərən ödəniş təşkilatları istisna olmaqla) və elektron pul təşkilatları," sözləri əlavə edilsin;

17.2. 1.1.23-cü maddənin birinci cümləsinə və 11.3.3-cü maddəyə "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin;

17.3. 9.1-ci maddəyə "bankda" sözündən sonra "və digər ödəniş xidməti təchizatçılarında" sözləri əlavə edilsin.

**Maddə 18.** Bu Qanun "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV ,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

## "18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il avqustun 22-də Bakı şəhərində imzalanmış "18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi barədə Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında logistika sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il noyabrın 13-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında logistika sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Çərçivə Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Çərçivə Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında energetika sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il noyabrın 13-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında energetika sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ətraf mühit və dayanıqlı inkişaf sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il noyabrın 13-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ətraf mühit və dayanıqlı inkişaf sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 421, № 8, maddə 1702; 2020, № 4, maddə 397; 2022, № 11, maddə 1259) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4.7.1-3-cü yarımbənd əlavə edilsin:

"4.7.1-3. bu Nizamnamənin 4.14-cü bəndinin üçüncü cümləsində nəzərdə tutulmuş qərarı qəbul edir;".

2. 4.14-cü bəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"İcraçı direktor olmadıqda Şuranın qərarı ilə, müvəqqəti olmadıqda isə İcraçı direktorun əmri ilə müavinlərindən biri onu əvəz edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114, № 7, maddə 703, № 8, maddələr 898, 900, 902; 2022, № 1, maddə 6, № 12, maddə 1370; 2023, № 1, maddələr 13, 21, № 4, maddə 459, № 5, maddə 625, № 6, maddə 747) 17.4-3-cü maddəsinin ikinci cümləsində "və diplomatik rütbələrin ixtisas dərəcələri ilə" sözləri", diplomatik rütbələrin və ixtisas dərəcələrinin" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972; 2010, № 4, maddə 273, № 5, maddə 385; 2011, № 4, maddə 271; 2012, № 5, maddə 412, № 11, maddələr 1042, 1050; 2013, № 3, maddə 228, № 12, maddə 1468; 2016, № 6, maddə 985; 2017, № 7, maddə 1256, № 8, maddə 1508, № 12 (I kitab), maddə 2206; 2018, № 3, maddə 391, № 12 (I kitab), maddə 2474; 2020, № 5, maddə 521; 2021, № 8, maddə 902; 2022, № 8, maddə 830, № 12, maddə 1378) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7-ci maddədə "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə əvəz edilsin;

2.2. 17-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sınaq müddəti müəyyən edilmiş şəxslər müvafiq vəzifəyə xüsusi rütbə verilmədən təyin olunur və onlar həmin müddət ərzində yalnız vəzifə maaşı alırlar.";

2.3. 18-ci maddədə "attestasiyadan" sözü "sınaq müddətinin qiymətləndirilməsinin nəticələrinə əsasən onu" sözləri ilə əvəz edilsin;

2.4. 20-ci maddədə "müddətində attestasiyadan" sözləri "müddətini müvəffəqiyyətlə" sözləri ilə əvəz edilsin və həmin maddəyə "edilmir" sözündən sonra "və onun qulluq keçməsinə bu Əsasnaməyə uyğun olaraq xitam verilir" sözləri əlavə edilsin;

2.5. 21-ci maddəyə "edilmir" sözündən sonra "və həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, miqrasiya orqanlarında daimi qulluğa qəbul edilirlər" sözləri əlavə edilsin;

2.6. 34-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Növbəli işdə - gündüz, axşam və gecə növbələri üçün eyni müddətli iş vaxtı müəyyən edilir.";

2.7. 56-cı və 58-ci maddələr ləğv edilsin;

2.8. 63-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"63-1. Böyük, orta və kiçik xüsusi rütbələr müvafiq təqdimat əsasında müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən verilir.";

2.9. 63-2-ci maddə ləğv edilsin;

2.10. 67-ci maddə aşağıdakı redaksiyada verilsin:

"67. Miqrasiya orqanlarında qulluq keçən və ya əvvəllər qulluq keçmiş şəxslər dövlət qulluğuna və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə işə qəbul edilərkən, onların miqrasiya orqanlarındakı qulluq illəri həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi, hərbi və ya diplomatik rütbə verilir. Dövlət qulluğunda və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə işləyən və ya əvvəllər işləmiş şəxslər miqrasiya orqanlarına qulluğa qəbul edildikdə, onların qulluq (xidmət) illəri miqrasiya orqanlarında qulluq illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına və bu Əsasnaməyə əsasən müvafiq xüsusi rütbə verilir.";

2.11. aşağıdakı məzmunda 74-1-ci maddə əlavə edilsin:

"74-1. Miqrasiya orqanlarının sərəncamında olan (intizam tənbehi qaydasında vəzifədən azad edilərək sərəncamda olan işçilər istisna olmaqla), həmçinin barəsində cinayət işi başlanmış və ya xidməti yoxlama keçirilən işçi vəzifəyə təyin olunduqda, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti yoxlama nəticəsində müsbət rəy aldıqda onun növbəti xüsusi rütbə alması üçün qulluq müddəti əvvəlki xüsusi rütbədə qulluq müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.";

2.12.84-1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Əsasnamənin 82-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Əsasnamənin 111.4-cü, 111.5-ci, 111.7-ci və ya 111.10-cu maddələrinə əsasən, yaxud pensiyaya çıxması ilə bağlı öz arzusu ilə işdən çıxma barədə yazılı ərizə verdiyinə görə miqrasiya orqanlarında qulluq keçməsinə xitam verilmiş miqrasiya orqanı işçisinə vəzifə maaşının 6 misli məbləğində birdəfəlik müavinət verilir.";

2.13. 97-ci maddəyə "kiçik miqrasiya xidməti qulluqçusu" sözlərindən əvvəl "kiçik miqrasiya xidməti çavuşu," sözləri əlavə edilsin;

2.14. 111-ci maddə üzrə:

2.14.1. aşağıdakı məzmunda 111.2-1-ci maddə əlavə edilsin:

"111.2-1. sınaq müddətini müvəffəqiyyətlə keçə bilmədikdə;";

2.14.2. 111.5-ci maddədə "dörd" sözü "altı" sözü ilə əvəz edilsin.

**Maddə 3.** Bu Qanunun 2.7-ci və 2.10-cu maddələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydası ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2023-cü il*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; 2017, № 4, maddə 522, № 5, maddə 752, № 11, maddə 1976; 2018, № 5, maddələr 855, 878, № 7 (I kitab), maddə 1440; 2019, № 1, maddə 23, № 7, maddə 1199, № 12, maddə 1899; 2020, № 6, maddə 669; 2021, № 7, maddələr 711, 715; 2022, № 6, maddə 591, № 7, maddə 703; 2023, № 2, maddə 199, № 4, maddə 445, № 8 (I kitab), maddə 1112) aşağıdakı dəyişikliklər edilsin:

1. 9-1-ci maddə üzrə:

1.1. 9-1.2-ci maddədə "aktlarının" sözü "qərarlarının, qərardadlarının, sərəncamlarının (bundan sonra - məhkəmə aktları)" sözləri ilə əvəz edilsin;

1.2. 9-1.5-ci maddənin birinci cümləsində "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

1.3. 9-1.9-cu maddədə "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin.

2. 12.2-ci maddənin birinci cümləsində "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə, ikinci cümləsində "tərəflərdən" sözü "proses iştirakçılarından" sözləri ilə əvəz edilsin.

3. 17.4-cü maddənin birinci cümləsində "tərəflər və digər proses" sözləri "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin və həmin cümləyə "ekspertlər" sözündən sonra ", mütəxəssislər" sözü əlavə edilsin.

4. 18.0-cı maddə üzrə:

4.1. 18.0.1-ci, 18.0.2-ci və 18.0.4-cü maddələrdə "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

4.2. 18.0.3-cü maddədə "18.1.1-ci" sözləri "18.0.1-ci" sözləri ilə əvəz edilsin.

5. IV fəslin adına "SƏNƏDLƏRİNİ" sözündən əvvəl "DİGƏR MƏHKƏMƏ" sözləri əlavə edilsin.

6. 20-ci maddə üzrə:

6.1. 20.1-ci maddənin birinci cümləsində "qərarları, qərardadları, sərəncamları (bundan sonra - məhkəmə aktları)" sözləri "aktları" sözü ilə əvəz edilsin;

6.2. 20.3-cü maddəyə "sənədləri" sözündən əvvəl "digər məhkəmə" sözləri əlavə edilsin.

7. 21-ci maddə üzrə:

7.1. 21.3-cü maddənin birinci cümləsində və 21.9-cu maddədə "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

7.2. 21.8-ci maddəyə "sənədləri" sözündən əvvəl "digər məhkəmə" sözləri əlavə edilsin.

8. 23.1-ci maddədə, 23.2-ci maddənin ikinci cümləsində, 77.1-ci, 78-ci maddələrdə, 89-cu maddənin birinci cümləsində, 100-cü maddədə, 117.2-ci maddənin birinci cümləsində və 123.5-ci maddədə "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

9. 24.1-ci və 120.1-ci maddələrdə "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin.

10. 27-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 27. Proses iştirakçıları**

27.1. İnzibati məhkəmə icraatının iştirakçıları, şahidlər, ekspertlər, mütəxəssislər, tərcüməçilər, nümayəndələr və vəkillər proses iştirakçıları hesab olunurlar.

27.2. Tərəflər və inzibati məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslər inzibati məhkəmə icraatının iştirakçıları sayılırlar.

27.3. İddiaçı (və ya bu Məcəllənin 132-ci maddəsinə uyğun olaraq ərizəçi) və cavabdeh tərəflər hesab olunurlar.".

11. 31-ci maddə üzrə:

11.1. 31.1-ci maddənin birinci cümləsində "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin;

11.2. 31.2-ci maddəyə "sənədləri" sözündən əvvəl "digər məhkəmə" sözləri əlavə edilsin.

12. 45.2-ci maddədə "Proses" sözü "İnzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin.

13. 48-ci maddə üzrə:

13.1. adında "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin;

13.2. 48.2-ci maddənin üçüncü cümləsinə "surətlərini" sözündən sonra "işin hallarından asılı olaraq" sözləri əlavə edilsin.

14. 49-cu maddə üzrə:

14.1. 49.1.1-ci maddəyə "proses" sözündən əvvəl "tərəfləri, zərurət olduğu hallarda digər" sözləri əlavə edilsin;

14.2. 49.1.6-cı maddədə "və ekspertləri" sözləri ", ekspertləri və mütəxəssisləri" sözləri ilə əvəz edilsin.

15. 54.1-ci maddədə "İnzibati məhkəmə icraatının başqa iştirakçılarının" sözləri "Cavabdehin" sözü ilə əvəz edilsin.

16. 58.2-ci maddəyə "və" sözündən sonra "digər" sözü əlavə edilsin.

17. 59.2-ci maddənin birinci cümləsinə "ekspertlərə" sözündən sonra", mütəxəssislərə" sözü əlavə edilsin.

18. 61.1-ci maddədə, 61.2-ci maddənin birinci cümləsində və 65.2-ci maddənin dördüncü cümləsində "Proses" sözü "İnzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

19. 69-cu maddə üzrə:

19.1. 69.2-ci maddədən ", onların qanuni və (və ya) prosessual nümayəndələrinin" sözləri çıxarılsın;

19.2. 69.8-ci maddədə "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

20. 75-ci maddə üzrə:

20.1. 75.3-cü maddədə "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

20.2. 75.3-1-ci maddədə "Proses" sözü "İnzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin;

20.3. 75.4-cü maddənin birinci cümləsində "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə, ikinci cümləsində "Tərəflərin şikayətin geri götürülməsi haqqında bəyanatı" sözləri "Şikayətin geri götürülməsi haqqında bəyanat" sözləri ilə əvəz edilsin.

21. 81.2-ci maddədən "(tərəflər və məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslər)" sözləri çıxarılsın.

22. 87-ci maddə üzrə:

22.1. 87.1-ci maddədə "digər proses iştirakçılarına göndərir, proses" sözləri "inzibati məhkəmə icraatının digər iştirakçılarına göndərir, inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

22.2. 87.4-cü maddənin ikinci cümləsində "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin.

23. 92.0-cı maddə üzrə:

23.1. 92.0.3-cü maddədə "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin;

23.2. 92.0.4-cü maddədə "proses" sözü birinci halda "inzibati məhkəmə icraatı" sözləri ilə, ikinci halda "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

24. 96-cı maddə üzrə:

24.1. 96.1-ci maddədə "digər proses iştirakçılarına göndərir, proses" sözləri "inzibati məhkəmə icraatının digər iştirakçılarına göndərir, inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

24.2. 96.3-cü maddənin ikinci cümləsində "proses" sözü "inzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin;

24.3. 96.4-cü maddənin üçüncü cümləsində "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

25. 110-cu maddə üzrə:

25.1.110.1-ci maddədə "işdə iştirak edən şəxslərə" sözləri "inzibati məhkəmə icraatının iştirakçılarına" sözləri ilə əvəz edilsin;

25.2. 110.5-ci maddədə "proses" sözü" inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

26. 111-ci maddə üzrə:

26.1. 111.1-ci maddənin birinci cümləsində "Proses" sözü "İnzibati məhkəmə icraatı" sözləri ilə, "proses" sözü "inzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin;

26.2. 111.2-ci maddədə "Proses" sözü "İnzibati məhkəmə icraatı" sözləri ilə əvəz edilsin;

26.3. 111.5-ci maddədə "Proses" sözü "İnzibati məhkəmə icraatının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

## "İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsinin gəlir və xərclərini dürüstləşdirmək məqsədilə **qərara alıram:**

"İcbari tibbi sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1949 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1459) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-ci bəndin "Məbləğ (manatla)" sütununda "2.241.239.633,0" rəqəmləri "2.301.959.633,0" rəqəmləri ilə əvəz edilsin.

2. 3.1.4-cü yarımbənd üzrə:

2.1. "Məbləğ (manatla)" sütununda "1.803.778.570,0" rəqəmləri "1.873 778.570,0" rəqəmləri ilə əvəz edilsin;

2.2. 1-ci abzasın "Məbləğ (manatla)" sütununda "1.653.778.570,0" rəqəmləri "1.625.778.570,0" rəqəmləri ilə əvəz edilsin;

2.3. 2-ci abzasın "Məbləğ (manatla)" sütununda "150.000.000,0" rəqəmləri "248.000.000,0" rəqəmləri ilə əvəz edilsin.

3. 3.1.6-cı yarımbənd üzrə:

3.1. "Məbləğ (manatla)" sütununda "174.809.683,0" rəqəmləri "165.529.683,0" rəqəmləri ilə əvəz edilsin;

3.2. 2-ci abzasın "Məbləğ (manatla)" sütununda "4.000.000,0" rəqəmləri "2.720.000,0" rəqəmləri ilə əvəz edilsin;

3.3. 3-cü abzasın "Məbləğ (manatla)" sütununda "50.000.000,0" rəqəmləri "30.000.000,0" rəqəmləri ilə əvəz edilsin;

3.4. 4-cü abzasın "Məbləğ (manatla)" sütununda "40.000.000,0" rəqəmləri "55.000.000,0" rəqəmləri ilə əvəz edilsin;

3.5. 7-ci abzasın "Məbləğ (manatla)" sütununda "10.000.000,0" rəqəmləri "7.000.000,0" rəqəmləri ilə əvəz edilsin.

4. 3.3-cü bəndin "Məbləğ (manatla)" sütununda "70.000.000,0" rəqəmləri "9.280.000,0" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin 67-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 67-ci maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Əsasnamənin 63-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti nəzərdə tutulur;

1.4. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun 3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. miqrasiya orqanlarında, habelə digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə qulluğa qəbul zamanı sınaq müddətinin müəyyən edilmədiyi halların dəqiq tənzimlənməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununda xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması ilə əlaqədar müəyyən edilmiş tənzimləmə nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 994; 2010, № 7, maddə 625; 2011, № 4, maddə 294; 2012, № 5, maddə 425; 2013, № 3, maddə 253, № 5, maddə 515, № 6, maddə 645, № 12, maddə 1518; 2014, № 5, maddə 471; 2017, № 5, maddə 759, № 7, maddə 1328; 2020, № 5, maddə 561; 2021, № 12, maddə 1355) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "62-ci maddəsinin ikinci cümləsində," sözlərindən sonra "67-ci maddəsinin birinci və ikinci cümlələrində," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.1-4-cü bənd əlavə edilsin:

"2.1-4. həmin Əsasnamənin 67-ci maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.3. 2.3-cü bənddən "maddəsində, 63-1.1-ci maddəsində (hər iki halda)" sözləri çıxarılsın;

3.4. 2.4-cü, 2.4-2-ci, 2.4-3-cü bəndlər və 3-cü hissə ləğv edilsin;

3.5. 2.4-1-ci bəndə "Əsasnamənin" sözündən sonra "63-1-ci maddəsində," sözləri əlavə edilsin.

4. "Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 16 oktyabr tarixli 442-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 noyabr tarixli 739 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1099) 3-cü və 4-cü hissələri ləğv edilsin.

5. Bu Fərmanın 1.1-ci, 1.2-ci, 3.1-ci, 3.2-ci və 3.4-cü ("Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanının 2.4-cü bəndinə münasibətdə) bəndləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydası ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424; 2022, № 5, maddə 452, № 8, maddə 863, № 12, maddə 1406; 2023, № 1, maddə 98) 4-cü hissəsində "kredit və ya hesab kartlarını və ya başqa" sözləri "ödəniş alətlərini və ya qiymətli kağız sayılmayan" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, 976, № 8 (I kitab), maddələr 1139, 1166, 1168, 1179, 1180; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2380 nömrəli Fərmanı) 5.47-ci bəndinə "439-1," rəqəmlərindən sonra "439-2," rəqəmləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226, № 3, maddə 375, № 4, maddələr 472, 505, № 5, maddə 653, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddə 1139; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2380 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15.0-cı bəndinə "439-1," rəqəmlərindən sonra "439-2," rəqəmləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin yanvar ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **9** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | **9** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **10** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **11** |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **12, 19, 26** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **12, 25** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi** | **15** |
| **Azərbaycan Respublikası Prezidenti köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **19** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **19** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **22** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **22** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **23** |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **24** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **26** |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **26** |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **29** |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **30** |
| *** | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **31** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79. Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır. Qəbul saat 14:00-dan başlayır. Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

## Ağdamda Ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilib

Dekabrın 25-də Ağdam şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Ağdam Konfrans Mərkəzində keçirilən iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 və 2 saylı Bərpa, Tikinti və İdarəetmə Publik Hüquqi Şəxsin nümayəndələri iştirak edib.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ekoloji tədbirlər, regionun biomüxtəlifliyi, mineral xammal ehtiyatları və yeraltı suların monitorinqi və təftişi işləri, faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, müasir texnologiyalardan istifadə olunması, yol tikintisi işlərində tələb olunan xammal təminatı, Ağdam şəhərində aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri, meliorasiya və su təsərrüfatı obyektlərinin bərpası və inkişafı istiqamətində görülmüş işlər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji"nin inkişafı və ekoloji mühitin keyfiyyətinin artırılması istiqamətində aparılan işlər, Ağdam şəhərində tətbiq olunan "yaşıl" texnologiyalar, yol-infrastruktur layihələrinin icrası zamanı ətraf mühitə təsirlər, işğaldan azad edilmiş ərazilərdə bərk məişət tullantılarının idarə olunması barədə iştirakçılara məlumat verilib, bərpa və yenidənqurma işləri nəticəsində tikinti və söküntü tullantılarının həcminin artması ilə əlaqədar Ağdam rayonunda başlanılan təkrar emal fəaliyyətinin genişləndirilərək işğaldan azad edilmiş digər ərazilərdə tətbiqi ilə bağlı məsələlər müzakirə edilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov tezliklə həllini tapmalı olan bir neçə ekoloji məsələyə toxunub və işçi qrupdan bu məsələlərin həllini nəzarətə götürməyi xahiş edib. İşçi qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov çıxışında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinin beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimad olduğunu qeyd edib. Eyni zamanda Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı barədə məlumat verib.

İclasdan sonra iştirakçılar Ağdam rayonunun Kəngərli kəndinin ərazisində yaranan tikinti-söküntü tullantılarının təkrar emal olunması qurğusunun işi ilə tanış olublar.



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan layihəyə başlanılıb

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin yüksək səviyyədə təşkil olunması, azad, ədalətli və şəffaf keçirilməsi, habelə fərqli statuslu seçki subyektlərinin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə genişmiqyaslı tədbirlər ardıcıl və sistemli şəkildə davam etdirilir.



Seçki iştirakçıları üçün müxtəlif istiqamətləri əhatə edən maarifləndirmə proqramına uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan regional seminarlara start verilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a daxil olan məlumata görə, yeni forma və məzmunda ilk dəfə prezident seçkilərində reallaşdırılan tədbir vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

Layihənin proqramına əsasən, ilk seminar dekabrın 25-də Bakı şəhərində Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadənin açılış nitqləri ilə başlayıb. Tədbirdə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvləri, Hüquq və İnsan Haqları İnstitutunun mütəxəssisləri, Mərkəzi Seçki Komissiyası Katibliyinin aidiyyəti struktur bölmələrinin əməkdaşları, eləcə də region üzrə 34 seçki dairəsi dairə seçki komissiyalarının müraciət və şikayətlərin araşdırılmasına məsul olan ekspert qruplarının 102 üzvü iştirak edib.

Seminarda Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunda təmsil olunan komissiya üzvlərinin, Hüquq və İnsan Haqları İnstitutunun mütəxəssislərinin seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri, seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması və ekspert qruplarının fəaliyyətinin əsasları, eləcə də Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququna dair çıxışları dinlənilib, əyani vəsaitlərdən istifadə etməklə mövzular barədə ətraflı məlumat verilib.

Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçirilib, iştirakçılar sınaq testlərinin həllinə cəlb ediliblər.

Seminara qatılan dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən ilk dəfə hazırlanan şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəylərin və qərar layihəsinin hazırlanması prosedurlarını aydın, əhatəli əks etdirən yaddaş kitabçası təqdim olunub.

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyasının genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində reallaşdırılan və seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan regional seminarların dekabrın 26-da Sumqayıtda, dekabrın 27-də Gəncə və Şəkidə, o cümlədən dekabrın 29-da Naxçıvan və Masallıda keçirilməklə, ümumilikdə ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərini əhatə etməsi nəzərdə tutulur.

# MSK ilk dəfə ekspert qruplarının üzvləri üçün yaddaş kitabçası hazırlayıb

Mərkəzi Seçki Komissiyası ilk dəfə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçası hazırlayıb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihə vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, fəaliyyətlərinin daha da təkmilləşdirilməsi və onlara metodiki kömək göstərilməsi üçün reallaşdırılıb.

Nəşrdə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun ekspert qruplarının üzvlərinə müraciəti yer alıb. Sədr müraciətində ilk dəfə seçkilərin ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlar da daxil olmaqla, respublikamızın hər bir bölgəsində keçirildiyini vurğulayır. O həmçinin ekspert qrupu üzvlərinin vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında böyük məsuliyyət daşıdığını xatırladır və onların seçki qanunvericiliyində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərinin öhdəsindən peşəkarlıqla və layiqincə gələcəyinə inandığını bildirərək, məsuliyyətli fəaliyyətlərində uğurlar arzulayır.

Kitabçada seçki hüququ ilə bağlı müraciətlərə baxılması, şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəy və qərar layihəsinin hazırlanması prosedurları müfəssəl izah olunub.

Yaddaş kitabçası Seçki Məcəlləsinin müddəaları və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanıb.

"Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçası Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində (www.msk.gov.az) də yerləşdirilib.




# MSK ekspert qrupu üzvləri üçün seminarlara start verir



Bu gün dairə seçki komissiyalarında (DSK) fəaliyyət göstərən ekspert qrupu üzvləri üçün təşkil olunmuş regional seminarları özündə birləşdirən layihəyə start veririk. Bu tədbirin əsas məqsədi dairə seçki komissiyalarında fəaliyyət göstərən 3 nəfərdən ibarət ekspert qruplarının peşəkarlıq səviyyəsinin artırılması, əvvəlki təcrübələrin yaratdığı təəssüratları onlarla bölüşmək və yeni işgüzar vərdişləri aşılamaqdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov jurnalistlərə açıqlamasında bildirib.

R.Qasımov qeyd edib ki, ekspert qrupunun bəzi nümayəndələri əvvəllər də bu proseslərdə iştirak ediblər.

"Bu tədbir prezident seçkiləri öncəsi həyata keçirilən bir ilklərdəndir. Belə ki, bu formatda belə tədbir ilk dəfədir həyata keçirilir. Budəfəki layihədə əsas tərəfdaşımız Hüquq və İnsan Haqları İnstitutudur", - deyə R.Qasımov qeyd edib.

# Azərbaycan Ağsaqqallar Şurasının ümumi yığıncağının iştirakçıları bəyanat qəbul ediblər

Dekabrın 25-də keçirilən Azərbaycan Ağsaqqallar Şurasının ümumi yığıncağında yekun bəyanat qəbul edilib.

AZƏRTAC bəyanatı təqdim edir: "Azərbaycan Ağsaqqallar Şurası xalqımızın mütərəqqi tarixi ənənələrinin, zəngin milli-mənəvi dəyərlərinin qorunması işinə daim öz töhfəsini verməyə çalışır. Ağsaqqal xeyirduası hər bir azərbaycanlı üçün böyük məna daşıyır. Cəmiyyətdə ictimai münasibətlərin tənzimlənməsində ağsaqqal sözünə hər zaman ehtiyac duyulub. Xalqımız həmişə müdrikliyə arxalanıb, tarixin ən həlledici anlarında müdrik seçimlər Azərbaycanı böyük bəlalardan qoruyub.

1993-cü ildə xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan tarixində bu gün əldə olunan bütün uğurların təməlini qoydu. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmiş nəhəng tarixi şəxsiyyətdir, o özündən sonra böyük siyasi irs miras qoyub. Heydər Əliyevin xalqımıza bəxş etdikləri saysız-hesabsızdır, o həm də Azərbaycan xalqına İlham Əliyev kimi oğul bəxş edib!

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək". İyirmi il əvvəl bu sözləri Ulu Öndər sanki bu günləri görərək deyirdi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Heydər Əliyev yolunu, irsini ən layiqli şəkildə davam etdirir, o, ata vəsiyyətini yerinə yetirərək Şuşanı azad etdi. Üç ay əvvəl Xankəndini işğaldan azad etdi. Bu gün bütün Qarabağda, Şərqi Zəngəzurda şanlı Azərbaycan Bayrağı qürurla dalğalanır. Prezident İlham Əliyev qalib xalqın qalib Lideridir!

Biz ağsaqqallar 30 il əvvəli də, 20 il əvvəli də yaxşı xatırlayırıq, xalqımız necə iztirablar çəkirdi. Vətən, yurd nisgili, həsrəti ilə sıralarımızdan nə qədər insan bu dünyadan köçdü. Biz xoşbəxt insanlarıq ki, bu günü gördük. Xalqımızın, dövlətimizin bu xoşbəxt günlərini görmək nəsibimiz oldu. Bu gün Azərbaycan tarixində olmayan qədər qüdrətli dövlətdir!

Biz gənclərlə daim ünsiyyətdəyik, onlarla fəxr edirik! Sirr deyil ki, bu gün bəzi hallarda milli-mənəvi dəyərlərimiz kənardan hücuma məruz qalır, yad ünsürlər gənclərimizi təsir altına salmağa, onların gözündə tarixi keçmişimizi, Vətənimiz, dövlətçiliyimizlə bağlı reallıqları təhrif etməyə çalışırlar. Ancaq onlar heç nəyə nail ola bilmirlər. Çünki bu gənclik Prezident İlham Əliyevin dövründə yetişib, bu gənclik Qarabağ uğrunda canını, qanını verib.

Azərbaycanda yaşlı nəsil də, gənc nəsil də bir yerdədir, bütün xalqımız Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində bir yumruq kimi birləşib. Bu "dəmir yumruğ"un gücünü 44 günlük Vətən müharibəsi göstərdi.

Bundan sonra Azərbaycanı ancaq qələbələr gözləyir. Tam müstəqil siyasət, tam ərazi bütövlüyü, tam suverenlik, güclü iqtisadiyyat, böyük intellektual potensial, insan resursları və ağıllı, çevik idarəçilik - budur İlham Əliyevin yaratdığı Azərbaycan!

Prezident İlham Əliyev Azərbaycan xalqının milli Lideridir. Biz ağsaqqallar Sizinlə fəxr edirik, cənab Prezident!

Hazırda 35 min üzvü olan Azərbaycan Ağsaqqallar Şurası bu gün ümumi yığıncaq keçirərək Prezident İlham Əliyevin siyasətinin davamını istədiyini bəyan edir. Çünki bu yol qələbə, təhlükəsizlik, əmin-amanlıq, rifah, inkişaf yoludur!"

# Apellyasiya Arbitraj Tribunalının yekun iclası keçirilib

Apellyasiya Arbitraj Tribunalının 2023-cü il ərzində fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib.

Tribunaldan AZƏRTAC-a bildiriblər ki, iclasda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Apellyasiya Arbitraj Tribunalının sədri Nazim Rəşidov qurumun il ərzindəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, tribunal yeni tərkibdə fəaliyyətə başladığı ötən dövrdə qarşıya qoyulmuş bütün vəzifələri icra edib, baxılan çoxsaylı işlər üzrə bərabərlik, çəkişmə və ədalətli baxış prinsiplərini gözləyib, hər kəsin müstəqil və qərəzsiz tribunal hüququnu təmin edib, operativ şəkildə qərarlar qəbul edib.

Tribunalın "Heydər Əliyev İli"ndə yeni tərkibdə fəaliyyətə başladığını vurğulayan N.Rəşidov bildirib ki, Ümummilli Liderin "İdman insanları həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir" fikirləri dövlətimizin müasir dövrdəki uğurlu idman siyasətinin formalaşmasında və inkişafında müstəsna əhəmiyyətə malik olub. Prezident İlham Əliyevin idmanın həyatımızın tərkib hissəsi olması barədə fikrini əldə rəhbər tutan Tribunal qəbul etdiyi obyektiv, ədalətli və humanist dəyərlərə söykənən qərarlarla bu sahənin inkişafına töhfə verməyə çalışıb.

N.Rəşidov qeyd edib ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyuna baxmaları və dövlətimizin başçısının oyundan əvvəl çıxışı hər bir azərbaycanlıya qürur hissi yaşadıb.

O, qurumun müstəqil, səmərəli və şəffaf fəaliyyətinə görə AFFA rəhbərliyinə, habelə tribunalın üzvlərinin təmsil etdikləri qurumların rəhbərlərinə minnətdarlığını bildirib. Qeyd edib ki, Apellyasiya Arbitraj Tribunalı bundan sonra da fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinin, eyni zamanda FIFA və UEFA-nın normativ tələblərini nəzərə almaqla, AFFA tərəfindən müəyyən olunan norma və qaydalar əsasında səmərəli təşkil edəcək, göstərilmiş etimadı daim doğrultmağa çalışacaq.

Tribunalın üzvləri çıxış edərək gündəlikdə duran məsələ ilə bağlı fikirlərini bölüşüblər. Çıxışlarda tribunalın növbəti ildə fəaliyyətinin daha səmərəli təşkili üçün müvafiq təkliflər irəli sürülüb, müxtəlif məsələlər müzakirə olunub.

Xatırladaq ki, tribunalın yeni tərkibi (sədri Nazim Rəşidov - Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndəsi; digər üzvlər: Rüfət Kərimov - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin nümayəndəsi, Arif Əyyubov - Vəkillər Kollegiyasının üzvü, Orxan Məmmədov - Dövlət Vergi Xidmətinin nümayəndəsi, Rəşad Qasımov - fərdi sahibkar, Cavid Quliyev - Dövlət Təhlükəsizlik Xidmətinin nümayəndəsi) AFFA İcraiyyə Komitəsinin 2023-cü il 7 mart tarixli qərarı ilə təsdiq olunaraq fəaliyyətə başlayıb.

Çıxışlardan sonra tribunal bir neçə şikayətə baxaraq qərarlar qəbul edib.

AFFA U-13 Liqasında çıxış edən "Baku Sporting" klubunun apellyasiya şikayəti təmin edilməyib. Komandanın heyətində yer alan doqquz nömrəli futbolçu Roman Bayandurov adından lisenziyası olmayan Əli Hüseynov adlı şəxs mötərizədə qeyd edilən oyunlarda (I tur "Baku Sporting" - "Zirə" PFK (2:1), II tur "Modern FC" - "Baku Sporting" (1:5), III tur "Baku Sporting" - "Fənər Bakı" (8:1), IV tur EFA - "Baku Sporting" (2:4), V tur "Baku Sporting" - ROFM (0:0), VI tur "Zəngəzur" FK - "Baku Sporting" (2:1), VII tur "Baku Sporting" - "Xəzər Baku" (5:0), VIII tur "Neftçi" PFK - "Baku Sporting" (2:2), IX tur "Baku Sporting" - "Xəzri Buzovna" (6:1)) iştirak etdiyinə görə kluba həmin matçlarda 0:3 hesablı texniki məğlubiyyət verilməsi barədə İntizam Komitəsinin qərarı qüvvədə saxlanılıb.

AFFA U-17 Qızlar Liqasında mübarizə aparan "Baku Sporting" klubunun şikayəti isə qismən təmin edilib. "Sumqayıt"la oyunun 41-ci dəqiqəsində hakimi təhqir etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 5 oyun cəzalanan "Baku Sporting"in baş məşqçisi Aliyə Vəliyeva ilə bağlı İntizam Komitəsinin qərarı dəyişdirilib. Təyin olunan cəzanın bir hissəsi icra edilərək sonuncunun müvafiq liqada 1 oyun buraxması, digər 4 matçlıq cəzasının isə ödənilməsi nəzərə alınaraq, yerdə qalan 4 oyun cəza şərti tətbiq edilib. Şərti cəzanın tətbiqi üçün 3 ay sınaq müddəti təyin olunub. Sınaq müddətinin başlanğıcı ilkin cəzanın çəkildiyi 24 dekabr tarixindən müəyyənləşdirilib. İntizam Komitəsinin qərarı qalan hissədə qüvvədə saxlanılıb.

Tural Bayramlının nümayəndəsi Elcan Həsənli tərəfindən verilən apellyasiya şikayəti də qismən təmin edilib. "Səbail" klubuna qarşı "kompensasiya" tələbinə dair" iş üzrə Oyunçuların Statusu və Transferi Komitəsi tərəfindən qəbul olunmuş əvvəlki qərar ləğv edilib. Bakı klubundan iddiaçı T.Bayramlının xeyrinə ikinciyə dəymiş zərərin əvəzi olaraq 70 000 manat məbləğində pul tutulub. Apellyasiya şikayəti qalan hissədə təmin edilməyib.

Maraqlı tərəflər Apellyasiya Arbitraj Tribunalının qərarından Lozannadakı (İsveçrə) İdman üzrə Arbitraj Məhkəməsinə (CAS) şikayət verə bilərlər. Qərarın tam mətni 30 gün ərzində hazırlanaraq tərəflərə göndəriləcək.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Regiona inkişaf gətirən Azərbaycan-Çin tərəfdaşlığı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderliyi ilə müstəqil dövlətimizin son onilliklərdə qazandığı ən böyük nailiyyətlərdən biri dünyanın əksər aparıcı dövlətləri ilə münasibətlərin daha da möhkəmləndirilərək inkişaf etdirilməsi, qlobal səviyyədə mühüm faydalar yaradan strateji layihələrin uğurla həyata keçirilməsidir. Artıq iqtisadi gücünə, qlobal proseslərə təsir imkanlarına görə dünyanın əsas mərkəzlərindən birinə çevrilmiş Çin Xalq Respublikası ilə münasibətlər bu baxımdan xüsusi önəm kəsb edir.



## Ənənəvi dost ölkələr

Çin Xalq Respublikasının sədri Si Cinpinin Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibətilə ünvanladığı təbrik məktubu ölkəmizlə Çin arasında getdikcə inkişaf edən əlaqələrin parlaq təcəssümüdür. Təbrik məktubunda Si Cinpin Çin və Azərbaycanın ənənəvi dost tərəfdaşlar olduğunu, hazırda bu əlaqələrin sabit inkişaf etdiyini, siyasi qarşılıqlı etimadın daim möhkəmləndiyini, müxtəlif sahələrdə əməkdaşlığın müvəffəqiyyətlə irəlilədiyini xüsusi qeyd edir, Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üçün səylərini yüksək qiymətləndirir. 2022-ci ilin sentyabrında Özbəkistanın Səmərqənd şəhərində İlham Əliyevlə yeni dövrdə ikitərəfli münasibətlərin inkişafına dair mühüm razılaşmaların əldə olunduğu uğurlu görüşü yada salan Çin lideri məktubunda öz ölkəsinin Azərbaycanla olan əlaqələrinin inkişafına böyük əhəmiyyət verdiyini, xalqlarımızın rifahı naminə qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəltmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birgə səyləri davam etdirməyə hazır olduğunu bildirir.

## Strateji münasibətlərin möhkəm təməli

Çin Xalq Respublikası ilə münasibətlərin inkişafı hələ müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasətində əhəmiyyətli yer tutub. Qlobal müstəvidə böyük gücə malik olan, dünya iqtisadiyyatında xüsusi rol oynayan, çox maraqlı və səmərəli inkişaf modeli yaradan Çinlə əlaqələrin inkişafına mühüm önəm verilib. Eyni zamanda böyük güc kimi regionda müəyyən iqtisadi-siyasi maraqları olan, xüsusilə bölgəmizin kommunikasiya potensialına həssas yanaşan Çin də Azərbaycanla münasibətlərin gücləndirilməsinə hər zaman diqqət göstərib. Bu münasibətlərin Azərbaycan və Çin dövlətlərinin milli maraqları çərçivəsində, bərabərhüquqlu əsaslarla qurulması, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanması ölkəmizdə Çinə rəğbət yaradan amillərdən olub. Ümumən, bu gün dünyada Çinin dostlarının sayının getdikcə artmasında bu amil xüsusi rol oynayır. Rəsmi Pekin bir çox dünya güclərindən fərqli olaraq, ədalətli siyasət aparır, prinsipial məsələlərdə haqqın-ədalətin yanında olur, əməkdaşlıq etdiyi ölkələrə bərabərhüquqlu dost, tərəfdaş kimi yanaşır, münasibətlərdə ikili standartlardan uzaq durur. Bu ölkənin ali rəhbərlərinin sözləri ilə əməlləri üst-üstə düşür. Bütün bunlar qlobal proseslərin iştirakçıları olan, həm öz milli maraqlarının qorunmasına, həm də ümumən dünyamızda sülhün, dayanıqlı inkişafın, insanların rifahının təmin olunmasına çalışan, müharibələr, hərbi qarşıdurmalar istəməyən Azərbaycan kimi ölkələr üçün çox önəmlidir. Ona görə də Azərbaycanda Çinin nüfuzu getdikcə güclənir, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri yüksək dəyərləndirilir.

İki dövlət arasında münasibətlərin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu müstəsnadır. Ulu Öndərin Çinə səfərləri, ölkənin ali rəhbərliyi ilə keçirdiyi görüşlər, imzalanan sənədlər, qarşılıqlı razılaşmalar çərçivəsində uğurla reallaşdırılan birgə layihələr bu münasibətlərin yeni strateji dövrlərdə də inkişaf etdirilməsi üçün möhkəm təməllər yaradıb. Nəzərə alaq ki, o illər Azərbaycan öz müstəqilliyini hələ yenicə qazanmışdı, dünya bizi o qədər də tanımırdı. Üstəlik, torpaqlarımızı işğal edən Ermənistan xaricdəki havadarlarının dəstəyi ilə Azərbaycanın ətrafında informasiya blokadası yaratmış, bir çox imkanlarımızı məhdudlaşdırmışdı. Belə bir zamanda Çinlə əlaqələrin genişləndirilməsinə doğru atılan addımlar bir tərəfdən Azərbaycanın xarici siyasət xəttinin ilk mühüm nailiyyətləri, digər tərəfdən isə Çinin reallıqlara düzgün strateji baxışının, ikili standartlardan kənar olmasının göstəricisi idi. Azərbaycanın Çinlə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verməsi həmçinin bu ölkənin yaxın illərdə dünyada nə qədər böyük gücə çevriləcəyi, qlobal proseslərə təsir imkanlarının hansı səviyyəyə çatacağı barədə aydın təsəvvürlərdən, daha dəqiq ifadə etsək, Ümummilli Lider Heydər Əliyevin müdrik strateq, dövlət başçısı kimi uzaqgörənliyindən irəli gəlirdi.

## Azərbaycan-Çin əməkdaşlığının gündəliyi indi daha genişdir

Bu gün Prezident İlham Əliyev Ulu Öndərin möhkəm təməllər üzərində formalaşdırdığı Azərbaycan-Çin münasibətlərini daha da inkişaf etdirir. Çin Xalq Respublikasının sədri Si Cinpinin təbrik məktubunda qeyd olunanlar ölkələrimiz arasındakı qarşılıqlı faydalı əməkdaşlığın hazırda ən yüksək mərhələyə çatdığını və bundan sonra da davamlı inkişaf üçün böyük imkanların olduğunu, həm rəsmi Bakının, həm də rəsmi Pekinin bu imkanlardan effektiv şəkildə yararlandığını göstərir. Dövlətimizin başçısı İlham Əliyev müsahibə və çıxışlarında bu mövzuya toxunaraq hazırda Azərbaycan-Çin əməkdaşlığı üzrə gündəliyin təxminən 30 il əvvəlkindən, yəni müstəqilliyimizin ilk illərində əlaqələrimizin hələ yenicə qurulduğu çağlardan daha geniş olduğunu bildirir.

Sirr deyil ki, tarixin bütün dövrlərində ölkələr arasındakı münasibətlərin inkişafında dövlət rəhbərlərinin şəxsi münasibətləri də mühüm rol oynayıb. Müasir dünyamızda bu amil xüsusilə münasibətlərə böyük təsir göstərir. Eyni dəyərləri paylaşayan, dünyamızın bu günü və gələcəyi ilə bağlı eyni düşüncələri bölüşən liderlər bir-birini daha yaxşı anlaya və məqsədlərini uzlaşdıra bilirlər. Bu gün Azərbaycanla Çin arasında əlaqələrin getdikcə inkişafında iki ölkənin liderlərinin şəxsi münasibətlərinin, onların dünyamızın gələcəyi ilə bağlı uzlaşan xoş məramlarının, regiondakı reallıqlara uyğun strateji baxışlarının təsiri çox böyükdür.

Münasibətlərin hazırki səviyyəsi Azərbaycan-Çin əməkdaşlığında yeni bir inkişaf mərhələsinin başlandığını göstərir, bir çox istiqamətlərdə gələcəyə doğru birgə irəliləmək əzmini ortaya qoyur. Hər iki ölkənin mövqe yaxınlığı, gələcəyə birgə aydın baxışı, mövcud potensialdan sosial-iqtisadi inkişaf, sülh və təhlükəsizlik, insanların rifahı naminə faydalanmaq istəyi regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsindən duyulur. Beynəlxalq gündəliyə aid təməl məsələlərdə suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq və s. mövzularda Azərbaycanla Çinin mövqeləri tam üst-üstə düşür. İqtisadi əməkdaşlıq məsələlərində də ölkələrimizin mövqeləri uzlaşır. Hər iki dövlət mövcud geopolitik reallıqlardan istifadə edərək yeni sosial-iqtisadi dəyərlər yaratmağa çalışır. Ölkələrimiz arasında ticarətin həcmi getdikcə genişlənir, bu sahədə mövcud olan böyük potensialdan istifadə üçün ardıcıl addımlar atılır. Yeni strateji nəqliyyat marşrutu layihələri bir tərəfdən Azərbaycanla Çin münasibətlərinin daha da inkişafı, digər tərəfdən də böyük sosial-iqtisadi faydalar, regional təhlükəsizlik, sabitlik, dayanıqlı inkişaf üçün mühüm pespektivlər yaradır. Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" ideyası bu strateji layihələr arasında xüsusi yer tutur.

## "Bir kəmər, bir yol" və qarşıya qoyulmuş məqsəd

Məlumat üçün bildirək ki, "Bir kəmər, bir yol" Çin hökumətinin 2013-cü ildə 70-ə yaxın ölkəyə və beynəlxalq təşkilata sərmayə yatırmaq məqsədilə qəbul etdiyi qlobal infrastruktur inkişaf layihəsidir. Layihə Çinin xarici siyasətinin əsas istiqamətlərindən sayılır. Belə bir təşəbbüs ilk dəfə 2013-cü ilin sentyabrında Qazaxıstanda "İpək Yolu İqtisadi Kəməri" adı ilə elan olunmuş, sonrakı dövrlərdə isə layihə "Bir kəmər, bir yol" kimi tanınmağa başlamışdır. Strategiya iki əsas inkişaf istiqamətini özündə birləşdirir. Bunlardan biri "İpək Yolu İqtisadi Kəməri"dir. Bu, Çinin Qərb bölgələrindən başlayıb Mərkəzi Asiyadan keçən məşhur tarixi ticarət yolları boyunca davam etməli olan avtomobil və dəmir yolu nəqliyyatı yollarını nəzərdə tutur. Strategiyanın digər istiqaməti isə "Dəniz İpək Yolu" layihəsidir. Bu istiqamət Hind və Sakit okeanları üzərindən Cənub-Şərqi Asiyadan Cənubi Asiyaya, Yaxın Şərqə və Afrikaya gedən dəniz yollarını əhatə edir. Belə bir qlobal ideyanın reallaşması malların Şərqdən Qərbə və əks istiqamətə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizi yaratmış olacaq. Layihə çox böyük miqyasda infrastrukturu, o cümlədən gəmilər üçün limanları, hava limanlarını, binaları, dəmir yollarını, avtomobil yollarını, su bəndlərini, elektrik stansiyalarını, tunelləri, logistika mərkəzlərini və s. əhatə edir.

Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən, özü də bu dəstəyi hazır mükəmməl infrastrukturla reallaşdıran ilk ölkədir. Prezident İlham Əliyevin hələ 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. 2019-cu il yanvarın 22-də isə Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da iştirak ediblər. Azərbaycan ötən onilliklər ərzində yaratdığı zəngin infrastrukturla "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində logistika mərkəzi, qovşaq və körpü kimi çox mühüm tarixi missiya yerinə yetirir. Hazırda Çinin təşəbbüsü ilə Orta dəhlizin dəmir yolunun inkişaf etdirilməsi layihəsi, bir qədər də dəqiqləşdirsək, Çin-Qırğızıstan-Özbəkistan arasında dəmir yolu bağlantısının yaradılması işi uğurla icra edilməkdədir. Bu, çox vacib əlavə təchizat marşrutudur, Azərbaycan və ümumən bölgəmiz üçün önəmli məqamsa budur ki, həmin layihə də Xəzər dənizi vasitəsilə Azərbaycana istiqamətlənib.

"Bir kəmər, bir yol" təşəbbüsünün rəsmi Pekin üçün əhəmiyyəti o qədər böyükdür ki, hətta 2017-ci ildə bu təşəbbüs Çin Xalq Respublikasının Konstitusiyasına daxil edilib. Çin hökuməti bu təşəbbüsü "regional əlaqələri gücləndirmək və daha parlaq bir gələcəyi əhatə etmək üçün bir cəhd" adlandırır. Layihənin tam reallaşması üçün qarşıya qoyulmuş hədəf 2049-cu ildir. Bu tarix təsadüfi deyil. Həmin il Çin Xalq Respublikasının əsasının qoyulmasının 100 ili tamam olur və rəsmi Pekin həmin əlamətdar tarixi bu meqalayihənin reallaşması ilə qeyd etmək niyyətindədir.

Çinlə səmərəli əməkdaşlıq münasibətləri regionun lideri olan Azərbaycanın bölgəmizdə daimi sülhün, təhlükəsizliyin, dayanıqlı inkişafın təmin edilməsi ilə bağlı maraqlarına tam uyğundur. Ölkəmiz bu layihənin uğurlarına qapı açan infrastrukturunu daha da inkişaf etdirir. Bakı Beynəlxalq Ticarət Limanı genişləndirilir, Şərqdən-Qərbə daşınan yüklərin həcminin artmasına paralel olaraq yükaşırma baxımından hər hansı problemlərin yaranmaması üçün əlavə imkanlar yaradılır. Eyni zamanda gəmiqayırma zavodunun imkanları artırılır, dəmir yolu vasitəsilə daha çox yükün nəqli üçün mövcud dəmir yolu sistemi modernləşdirilir.

## Azərbaycan strateji tərəfdaşlarını hər zaman düzgün seçir

Azərbaycanda həmçinin istehsal və emal müəssisələrinin fəaliyyəti üçün yaradılmış şərait, sənaye parklarının təşkili, xüsusilə artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonasında mövcud olan əlverişli infrastruktur da Çin üçün cəlbedicidir. Çin şirkətləri burada istehsalla məşğul ola, hazır məhsullarını böyük məsafə qət etmədən logistik baxımdan daha rahat şəkildə Azərbaycandan dünya bazarlarına çıxara bilərlər. Ölkəmiz Çinin biznes qurumlarına bu qarşılıqlı fayda imkanlarını da yaradır.

Azərbaycanla Çinin hakim partiyalarının çox sıx əməkdaşlıq əlaqələri var. Yeni Azərbaycan Partiyası uzun illərdir ki, Çin Kommunist Partiyası ilə yaxından əməkdaşlıq edir. İki partiya arasında qarşılıqlı səfərlər həyata keçirilir, təcrübə mübadiləsi aparılır. Bütün bunlar münasibətlərin inkişafına töhfə verən önəmli məqamlardır. Partiyalar arasındakı təmasların yaratdığı əməkdaşlıq formatı Azərbaycanla Çin arasındakı ikitərəfli əlaqələrin inkişafında yekdil siyasətin olmasının daha bir göstəricisidir. Bütün bunlar Azərbaycanla Çin arasında strateji tərəfdaşlığın formalaşmasına çox mühüm töhfələr verir. İki ölkə arasındakı münasibətlərin ümumən regionumuz üçün gətirdiyi faydalar Azərbaycanın öz strateji tərəfdaşlarını nə qədər düzgün seçdiyini bir daha göstərir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*



Birinci dərəcəli gözdən əlil bir insanın qarşısında dünyanın heç yerində bu cür perspektivlər açıla bilməzdi. Xoşbəxtəm ki, Vətənim Azərbaycandır. Gənc mütəxəssis ikən Ulu Öndər Heydər Əliyevin qayğıkeşliyi sayəsində ev-eşik sahibi oldum. Daha sonra isə dövlətimizin müdrik başçısı İlham Əliyevin "Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" sözlərinin gerçəkdə inikasını öz həyatımın timsalında gördüm".

# "Ulu Öndər və Prezident İlham Əliyev mənə işıqlı dünya bəxş etdilər"

### Azərbaycan Milli Paralimpiya Komitəsinin üzgüçülük üzrə yığma komandasının baş məşqçisi Allahverdi Culfayevin həyatında bu iki şəxsiyyətin böyük rolu olmuşdur

Bunları müsahibim - Azərbaycanın Milli Paralimpiya Komitəsinin üzgüçülük üzrə yığma komandasının baş məşqçisi, Əməkdar məşqçi, Prezidentin fərdi təqaüdçüsü Allahverdi Culfayev deyir. O, dünyanı qəlbi ilə görən bir insandır. Hələ kiçik yaşlarında ikən tale tərəfindən gözlərinin işığı alınmış olsa da, Allahverdi daxili dünyasında bir çıraq yandıra bilmiş və onun işığında qaranlıqları yararaq daim irəliyə doğru yol getmişdir. Ali hüquq təhsili almış, uzun illər müəllimlik etmiş, idmanda mühüm qələbələr qazanmışdır. Bu sahələrin hər birində indi də fəaliyyətini davam etdirir.

Allahverdi Culfayev özünü şanslı insan sayır. Deyir ki, xoşbəxtliyi ömrü boyu qarşısına xeyirxah, qəlbi böyük insanların çıxmasıdır. Həyatın çətin yollarında həmişə onların köməyini, arxa-dayağını hiss edib. Bu insanlardan ən birinci Ümummilli Lider Heydər Əliyevin adını çəkir. Eləcə də Prezident İlham Əliyevin Azərbaycan idmanına və idmançılarına göstərdiyi diqqət və qayğıkeşlikdən, dövlət başçısı ilə görüşlərinin xoş təəssüratından, əməyinin yüksək qiymətləndirilməsindən ürəkdolusu danışır:

- 1980-ci ilin dekabr ayında, işinin-gücünün başından aşdığı bir zamanda Ulu Öndərin məni qəbul etməyi, mənimlə səmimi görüşməyi və dərdimi dinləməyi ölüncə yadımdan çıxmaz. O vaxt mən gənc bir mütəxəssis kimi müəllimlik edirdim. Ailə də qurmuşdum, ilkinimiz dünyaya gəlmişdi. Kirayədə, nimdaş bir otaqda yaşayırdıq. Mən bunları Ulu Öndərə söyləyəndə selektorun düyməsini basıb kimisə yanına çağırdı. Əlbəttə, görmə qabiliyyətim olmadığından hansı düymənin basıldığını və çağırılan adamın kim olduğunu bilmədim. Amma Ulu Öndərin o kəsə dediyi qısa bir cümlə indi də qulaqlarımda səslənir: "Araşdırın, təmin edin, mənə məlumat verin!" Heç yarım ay da keçmədi, 1981-ci il yanvarın əvvəlində, Yeni il bayramında rahat mənzillə təmin olundum. Bir otağa da razı idim, amma, ikiotaqlı, şüşəbəndli mənzil verdilər, həm də səhhətimi nəzərə alaraq münasib mərtəbədən...

Xoş bir təsadüf Allahverdi Culfayevi Ulu Öndərin ömür-gün yoldaşı, tanınmış oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva ilə də görüşdürüb. Allahverdi danışır ki, həmin vaxt o, indi Zərifə Əliyevanın adını daşıyan Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutuna tez-tez gedib-gəlirmiş. Gözündəki problemlərə görə məsləhətlər alır, müalicə olunurmuş. Oftalmoloq-alim Fəridə Nəsrullayevanın pasiyenti imiş. Burada iki dəfə Zərifə xanımla rastlaşıb.

- Görünür, həkimim Nəsrullayeva Zərifə Əliyeva ilə mənim xəstəliyim barədə əvvəlcədən söhbət etmişdi və onlar öz aralarında fikir mübadiləsi aparmışdılar. Məni ilk növbədə Zərifə xanımın həkim etikası valeh etdi. Belə ki, həmkarından gözlərimi əyani şəkildə müayinə etmək üçün icazə istədi. Zərifə xanım bunu bilavasitə onun xəstəsi olmadığım üçün öz yüksək daxili mədəniyyətini göstərərək etdi. Sonra yenə də həkim etikası nümayiş etdirərək yaxınlaşıb gözlərimə baxmaq üçün məndən də icazə aldı: "Olarmı, sizi mən də müayinə edim?" Bu əhvalatı həkim olan qızlarımın hər ikisinə danışmışam. Həmişə Zərifə xanımı onlara nümunə göstərirəm. Ulu Öndər Heydər Əliyevdə, xanımı Zərifə Əliyevada gördüyüm böyüklüyü, alicənablığı, xeyirxahlığı paralimpiyaçıları qəbul etdiyi zaman müdrik Prezidentimiz İlham Əliyevdə də gördüm. Əbəs deməyiblər ki, ot öz kökü üstə bitər.

2012-ci il sentyabrın 14-də Prezident İlham Əliyev XIV London Paralimpiya Oyunlarında ölkəmizi təmsil etmiş idmançıları və onların məşqçilərini qəbul etdi. Elə həmin gün Prezident Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında sərəncam imzaladı. "Şöhrət" ordeni ilə təltif olunan 10 nəfər sırasında Londondan beş medalla qayıtmış üzgüçü Natali Pronina və onun məşqçisi Allahverdi Culfayev də var idi.

- İdmanla lap uşaqlıq illərimdən dostlaşmışıq, - deyir Allahverdi müəllim. - Əvvəlcə bir idmançı, sonra da məşqçi kimi gücüm, fiziki imkanlarım, vaxtım çatınca Azərbaycanda idmanın inkişafına səy göstərmişəm.

Allahverdi Culfayev hələ sovet dönəmində bir sıra mötəbər yarışlarda iştirak edib və qalib gəlib. SSRİ-də paralimpiya komitəsi yox idi. Guya ki, Sovet İttifaqında fiziki qüsurlu insan ola bilməzdi. Lakin SSRİ-nin yüngül atletika üzrə gözdən əlillərdən ibarət iki yığma komandası vardı. Allahverdi birinci, yəni daha güclü komandanın üzvü idi və ittifaq dağılana qədər həmin komandada çıxış etdi.

Allahverdi paralel şəkildə üzgüçülüklə də məşğul olurdu. Rusiyada, Belorusda, Qazaxıstanda, Özbəkistanda, Estoniyada keçirilən yarışlarda, 1987-ci ildə Avropa çempionatında bir-birinin ardınca uğurlar qazandı, çempion adını aldı.

SSRİ dağıldıqdan sonra onun çıxış etdiyi komandalar pərən-pərən düşdü, öz respublikamızda isə o dövrdə idmana diqqət yetirilmirdi. Təbii ki, Allahverdi də heç bir komandada çıxış etmir, idmanla yalnız fərdi şəkildə məşğul olurdu. 1996-cı il fevralın 9-da Azərbaycanda Milli Paralimpiya Komitəsinin yaradıldığını eşidəndə o, ömrünün ən xoşbəxt anlarından birini yaşadı və bundan sonra yenidən böyük idmana qayıtdı. Bu dəfə məşqçi kimi.

2009-cu ildən gənc üzgüçülərlə məşq edir. Kənan Pirizadə, Sergey Plujnikov, Natali Pronina, daha sonra Dmitri və Roman Saley qardaşları, Vəli İsrafilov kimi para-üzgüçüləri beynəlxalq səviyyədə keçirilən yarışlara o hazırlayıb. Onlar da məşqçinin ümid və etimadını cavabsız qoymayıblar. Bir çox yarışda müvəffəqiyyətlə çıxış edərək Azərbaycana başucalığı gətiriblər. 14 il ərzində Allahverdi Culfayevin yetirmələrinin Vətənə gətirdikləri qızıl medalların sayı 60-a yaxındır. Gümüş və bürünclərin isə sayı-hesabı yoxdur.

Söhbətimiz zamanı baş məşqçi belə yarışlardan birini xatırlayaraq dedi:

- O vaxt para-üzgüçülərdən ibarət yaratdığımız komanda ilk kövrək addımlarını atırdı. 2010-cu ilin martında ABŞ-nin Texas ştatının San-Antonio şəhərində keçirilən ABŞ-Kanada açıq paralimpiya oyunlarında üzgüçümüz Natali Pronina ilə iştirak etməli olduq. Bizim bu səfərimizə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu xeyirdua və maddi dəstək verdi. ABŞ-dən 7 (5 qızıl və 2 gümüş) medalla qayıtdıq... Deməyim odur ki, vətənpərvərlik, insansevərlik, xeyirxahlıq Əliyevlər ailəsinin hər bir üzvünə müyəssər olan ali keyfiyyətlərdir.

Baş məşqçi Allahverdi Culfayevin Azərbaycan idmanının inkişafına töhfələri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, böyük qürur duyur ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla "Şöhrət" ordeni, fəxri diplom, "Tərəqqi" medalı, 3-cü dərəcəli "Əmək ordeni" ilə təltif olunub. Prezidentin fərdi təqaüdçüsü olan Culfayev Əməkdar məşqçi fəxri adına da layiq görülüb.

İllər əvvəl o, kirayənişin kimi qaldığı otaqdan Ulu Öndərin verdiyi ikiotaqlı mənzilə köçmüş və övladları orada boya-başa çatmışdır. O vaxtdan bəri ailə üzvlərinin sayı artan Culfayevə Prezident İlham Əliyev geniş mənzil hədiyyə edib.

- Belə bir Prezidentimiz olduğu üçün qürur hissindən ürəyim köksümə sığmır. Məhz İlham Əliyevin liderliyi ilə biz hər sahədə qələbələr qazanmışıq: döyüş meydanında da, bütün sosial-iqtisadi sahələrdə də. Azərbaycanın idman nailiyyətləri də bilavasitə Milli Olimpiya Komitəsinin prezidenti kimi İlham Əliyevin adı ilə bağlıdır. Gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində biz yenidən İlham Əliyevə səs verərək onun liderliyi ilə yeni zirvələr fəth edəcəyik.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qlobal ehtiramın göstəricisi



"Prezident İlham Əliyev dünya siyasətində imzası olan böyük şəxsiyyətdir. Böyük sərkərdəmizin rəhbərliyi altında Azərbaycan dünya dövlətləri arasında özünəməxsus yer tutub. Dünyada sabitlik, sülh və əməkdaşlıq məkanı kimi tanınan ölkəmiz həm də etibarlı tərəfdaş imicini formalaşdırıb. Dövlət başçımızın dünya liderləri ilə şəxsi dostluq münasibətləri Azərbaycanın beynəlxalq birliklə hərtərəfli əlaqələrini möhkəmləndirib".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, 24 dekabrda doğum gününü qeyd edən Prezident İlham Əliyevə bu münasibətlə dünyanın hər yerindən saysız-hesabsız təbrik məktubları göndərilir: "Dünyanın güc mərkəzləri hesab edilən böyük dövlətlərin rəhbərləri də İlham Əliyevə təbrikləri göndərərək xoş arzularını çatdırır, həmçinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirirlər. Bu, dövlət başçısının dünyada olan böyük nüfuzunun və ona olan dərin hörmətin göstəricisidir. Bunun digər səbəbi isə Prezidentin rəhbərliyi altında Azərbaycanın regionda yaratdığı yeni reallıqlardır".

Deputatın sözlərinə görə, Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi istiqamətində atdığı addımlar, ölkəmizin beynəxalq logistik imkanlarını dünya üçün açıq elan etməsi, beynəlxalq təşkilatlarda fəal iştirakı ilə verdiyi qlobal töhfələr dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Həmçinin üç il əvvəl 44 günlük Vətən müharibəsində torpaqlarımızı azadlığa qovuşdurmağımız və bu ilin 19-20 sentyabrında keçirdiyimiz lokal xarakterli antiterror tədbirləri ilə mülki insanlara heç bir zərər yetirmədən bütün ərazilərdə suverenliyimizi təmin etməyimiz dünya praktikasında baş verən çox nadir hadisələrdəndir. Azərbaycanın gücünün göstəricisi olan bu proseslər dünya ölkələrinin diqqətini cəlb edib.

Azər Badamov vurğulayıb ki, bütün ərazilərimizdə suverenliyimizin təmin olunması ölkədə sülhün və sabitliyin əsaslarını möhkəmləndirir: "Bu, Azərbaycanı təhlükəsiz məkana, belə demək mümkündürsə, sabitlik adasına çevirib. Elə bu da beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir".

Deputat onu da deyib ki, Prezident İlham Əliyevin ünvanına göndərilən təbriklər yalnız dövlət başçıları və beynəlxalq təşkilatlar tərəfindən olmadı: "30 il ərzində torpaqlarımızı işğal altında saxlayaraq bizimlə düşmənçilik yaşamış erməni xalqının nümayəndələrinin təbrikləri xüsusilə diqqət çəkdi. Tarixdə ilk dəfə erməni jurnalistləri və siyasətçiləri sosial şəbəkələr vasitəsilə Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik etdilər. Bu, dövlət başçısının regional sülhün və sabitliyin təminatçısı olduğunun və bunun sülhsevər ermənilər tərəfindən də qəbul edildiyinin göstəricisidir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# 2024 "yaşıl" il olacaq

Bu gün dünyanın iki bədbin mənzərəsi mövcuddur. Bir tərəfdə planetimiz aramsız davam edən müharibələrdən əziyyət çəkir, digər tərəfdə isə təbii fəlakətlərin sırası durmadan uzanmaqdadır. Bu çıxılmaz vəziyyət pərdə arxasında yox, hamının gözü qarşısında getdikcə ağırlaşır.

Hamı məsələnin ciddiliyindən danışsa da, bu barədə saysız yazılar və filmlər hazırlansa da, vəziyyəti düzəltmək üçün atılan real addımlar demək olar ki, nəticəsiz qalır. Sanki Ukraynada, Qəza sektorunda və başqa qaynar nöqtələrdə davam edən müharibələr təbii fəlakətlərdən, təbii fəlakətlərsə qanlı qarşıdurmadan "ilham" alıb bəşəriyyətin sonuna çıxmaq istəyirlər.

Dünya bu təhlükələrə nə qədər biganə yanaşsa da, Azərbaycan fərqli münasibətləri sərgiləyə bilən ölkələrin sırasındadır. Məlum olduğu kimi, dünən Prezident İlham Əliyev ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalamışdır. Erməni işğalından yeni qurtulan və ərazilərində böyük quruculuq işləri aparan bir dövlətin belə gərgin məqamda dünyanın ekoloji problemlərinin qorunmasını da önə çəkməsi və bu istiqamətdə ciddi addımlar atması təqdirəlayiqdir. Biz onun şahidi oluruq ki, bir sıra aparıcı dövlətlərin süst addımları fonunda Azərbaycan bu sahədə daha fəal və daha qətiyyətlidir.

Prezidentin imzaladığı sərəncamda qeyd olunur ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə daim ciddi addımlar atır, baş verən ekoloji fəlakətləri yüngülləşdirmək üçün zəruri tədbirlər həyata keçirir. Təsadüfi deyil ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin sənəddəki vəzifələrin icrasına nail olmaq üçün ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətlərində zəruri addımlar atılır və vacib işlər görülür. Bu işlər sayəsində baza ili (1990) illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35, 2050-ci ilə qədər isə 40 faiz azaldılması gözlənilir.

Diqqətçəkən həm də odur ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunmuşdur. Bu isə o deməkdir ki, həmin regionlarda ətraf mühitin qorunması prioritet kimi əsas götürülmüşdür. Artıq işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq və ekosistem fərqli və müasir qaydalar əsasında bərpa edilir.

Ümumiyyətlə, "yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetinə çevrilmişdir. Burada maraqlı bir faktı da qeyd etmək yerinə düşərdi: Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını qarşısına məqsəd qoymuşdur. Həm də bu səbəbdəndir ki, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29" kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərar verilmişdir. Bu onu göstərir ki, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimad göstərilir, ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində atdığı mühüm addımlar bütün dünyada rəğbət doğurur.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan müasir dünya düzənində yeni düşüncə tərzinə, daha çevik və faydalı addımlar atmaq bacarığına malikdir. 30 illik erməni işğalının vurduğu ağır ziyanların aradan qaldırılması ilə bərabər, ölkəmizin qlobal hədəflərə istiqamətlənməsi isə onu göstərir ki, Azərbaycan bütün bəşəriyyəti düşündürən problemlərin həllində də fəal iştirakçıdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dünyada yüksək nüfuz sahibi olan Lider



"Prezident İlham Əliyevin ad günü münasibətilə aldığı çoxsaylı təbrik məktubları onun təkcə ölkə hüdudlarında deyil, dünyada etimad göstərilən və hörmət edilən şəxsiyyət olduğunu göstərir. Dövlətimizin başçısının qlobal mürəkkəb proseslər fonunda suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasına nail olması xarici siyasi dairələrin diqqətini cəlb edir. Prezident İlham Əliyevin dünyada Azərbaycan haqda haqlı olaraq formalaşdırdığı yüksək imic diqqətlərdən yayınmır".

Bunu Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Prezidentin uğurlu xarici siyasət yürütməsinin nəticəsidir ki, təbrik məktublarında dövlət başçıları xoş arzuları ilə bərabər, Azərbaycanla əməkdaşlığın möhkəmləndirilməsində maraqlı olduqlarını bildirirlər: "Görünən odur ki, dövlətimizin başçısının balanslaşdırılmış xarici siyasəti beynəlxalq əməkdaşlığı inkişaf etdirmək istiqamətində səmərə verib. Azərbaycanın qlobal əhəmiyyətli tədbirlərə yüksək səviyyədə evsahibliyi etməsi, qlobal təşəbbüsləri nüfuzlu beynəlxalq qurumlar və dövlətlər tərəfindən təqdir edilir. Həmçinin qlobal problemlərin həlli ilə bağlı irəli sürdüyü təkliflər və təşəbbüslər də beynəlxalq birlik tərəfindən diqqətlə izlənilir".

Deputat söyləyib ki, bu gün Azərbaycan Ordusunun dünya orduları sırasında ilk 50 yerdə qərarlaşması da Prezident İlham Əliyevin müəllifliyi ilə baş tutub: "Təsadüfi deyil ki, Vətən müharibəsində icra edilən döyüş texnikaları bu gün bir çox hərb məktəbində öyrənilir. Ordumuzun gücünə güc qatan, ölkədə iqtisadi dayanıqlılığı təmin edən, vətəndaşların rifahını yaxşılaşdıran və Azərbaycanı regionun və dünyanın aparıcı dövlətlərindən birinə çevirən Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Onun zəhmətinin bəhrəsidir ki, hazırda Azərbaycan dünyanın siyasi arenasında nüfuzu güclənmiş dövlətlərdən biridir. Ölkədə milli təhlükəsizlik möhkəmlənib, sabitlik hökm sürür. Bu faktor da Azərbaycanı beynəlxalq aləmdə cərəyan edən bir sıra faydalı proseslərin əsas iştirakçısına çevirib.

Arzu Nağıyevin dediyinə görə, Prezidentin ad günündə aldığı təbriklər ona dərin hörmət bəslənildiyini sübut edir. Bu, ona olan ehtiramın bariz təzahürüdür. Azərbaycan bayrağını yüksəklərə ucaldan Prezident İlham Əliyev dünyada nüfuz sahibidir. Təkcə Azərbaycan xalqı yox, beynəlxalq ictimaiyyət də bu fikri bölüşür, İlham Əliyevin nüfuzlu lider olduğunu qəbul edir. Tarixin ən qüdrətli Azərbaycanını yaradan, üçrəngli bayrağımızı Şuşada, Xankəndidə və Xocalıda dalğalandıran lider bu ehtirama layiqdir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Dünya neoimperialist Fransanın iç üzünə bələd olur

## Paris Azərbaycana qarşı qərəzli davranışlarına görə çox şey itirəcək

"Fransanın Azərbaycana qeyri-dost münasibəti artıq bütün istiqamətlərdə açıq xarakter alıb və beynəlxalq hüququn normalarında əksini tapmış prinsiplərə zidd məqsəd və niyyətlərdən qaynaqlanır. Bu gün Fransanın Azərbaycanla münasibətlərinin düyün nöqtəsi Qafqazda cənab İlham Əliyevin formalaşdırdığı və Azərbaycanın əsas hərbi-siyasi güc kimi çıxış etdiyi geosiyasi konfiqurasiyadır".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Azərbaycan bütün hallarda ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bunun üçün qarşılıqlı fəaliyyət göstərməyi ali məqsəd olaraq müəyyən edib. Prezident İlham Əliyev BMT Nizamnaməsində əks olunan məqsəd və prinsiplər, o cümlədən sənədin 2-ci maddəsinin 4-cü bəndinə müvafiq olaraq Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün qəti addımlar ataraq işğal və təcavüzə, o cümlədən separatizmə son qoyub. Fransa Cənubi Qafqazda işğal və separatizmə son qoyulmasının onun maraqları ilə uzlaşmadığını artıq gizlətmir. Daha doğrusu, görünən odur ki, Paris regionda maraqlarını yalnız işğal, təcavüz və separatizm faktoru üzərində quraraq hərəkət edirmiş.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin beynəlxalq hüququn aliliyini təmin edərək qəbuledilməz status-kvoya son qoyması neoimperialist Fransaya zərbə olub: "Özünü guya sivil və demokratik dövlət və müasir beynəlxalq hüquqa sadiq subyekt olaraq təqdim edən Fransa, əslində, baş verənləri alqışlamalı idi. Fransanın Qafqazda əsas ticari və iqtisadi tərəfdaşı Azərbaycandır. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzuru - özünün beynəlxalq hüquqla tanıdığı torpaqlarını azad etməsi, Qarabağda separatizmə son qoyması isə Fransanın birbaşa ticari və iqtisadi maraqlarına nəinki mənfi təsir etmir, əksinə, Parisin regionda sağlam maraqlarını genişləndirmək üçün geniş fürsətlər yaradır. Lakin Fransa başqa dövlətlərlə, xüsusən postsovet məkanında yerləşən ölkələrlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmaq niyyətində deyil".

Fransanın bu regionla Afrika, Asiya, Mərkəzi Amerika və Okeaniyadakı XXI əsr üçün utanc hesab edilən müstəmləkələrindəki kimi davranmaq niyyətində olduğunu vurğulayan deputat deyib ki, xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda Cənubi Qafqazda Kremlin mövqelərinin zəiflədiyi qənaətinə gələn Paris bu məsələdə daha da azğınlaşıb. Əlbəttə, marionet dövlət olan Ermənistana münasibətdə, Fransanın tezisləri bu və ya digər formada situasiyaya uyğun gələ bilər. Lakin Azərbaycan hələ Ulu Öndər Heydər Əliyevin hakimiyyət illərindən tam siyasi müstəqil dövlətdir. Prezident İlham Əliyev isə Azərbaycanın istisnasız olaraq iqtisadi müstəqilliyinə nail olub. Bu gün Azərbaycan özünün suveren iqtisadi və siyasi kursu olan, hərbi-siyasi güc kimi tanınan müstəqil beynəlxalq subyektdir. Nəinki Fransa, ümumilikdə heç bir güc Azərbaycanla diktə dilində danışa bilməz.

B.Məhərrəmov qeyd edib ki, dövlət başçısı son 3 ildə bir neçə dəfə Ermənistanın fonunda Fransanı hərbi-siyasi məğlubiyyətə uğradaraq geri çəkilməyə məcbur edib. Təbii ki, Fransa kimi çirkin maraqlarla hərəkət edən dövlətin gözləntisi bu deyildi və bu mənada Paris digər istiqamətlərdə radikal səylərini artırmağa çalışdı. "Aydındır ki, Paris pozucu qeyri-hüquqi fəaliyyətini yalnız nəzəri niyyətlər üzərində qurmur, təxribatçı və təhlükəli mövqeyinin reallaşdırılması üçün əməli addımlar da atır. Fransanın destruktiv mövqeyinin realizəsi isə açıq diplomatik fəaliyyətlə mümkün deyil. Bu mənada, regionda agentura şəbəkəsini gücləndirməsi gözlənilən addımlardan idi. Lakin Qərb mətbuatında, Cənubi Qafqaz, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş casus şəbəkəsinin Azərbaycanda ifşa olunması barədə məlumatların yayılması və Bakının bu mövzuda susması isə deməyə əsas verir ki, Bakı bu müstəvidə də Parisi fiaskoya uğratdı. Təbii ki, Qərb mətbuatının məlumatlarının səhihliyi barədə yalnız aidiyyəti dövlət strukturları açıqlama yaya bilər. Lakin Fransa prezidentinin xüsusi xidmət orqanlarında ciddi kadr dəyişikliyi və Azərbaycana artan aqressiya fonunda bu məlumatların ciddi qəbul edilməsi üçün yetərli arqument hesab edilə bilər", - deyə deputat əlavə edib.

Deputat bildirib ki, bütün bunlar Azərbaycanın ən qüdrətli dövrünü yaşadığını, o cümlədən təhlükəsizlik orqanlarının inkişafının çiçəklənmə dövründə olduğunu, xalqın və ölkənin milli maraqlarının, cəmiyyətin və dövlətin hüququnun, mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının ən yüksək səviyyədə təmin edildiyini bir daha göstərdi. Ölkəmizdə Ulu Öndərin yaratdığı və hazırda həmin ənənələri peşəkarcasına yaşadan əks-kəşfiyyat fəaliyyəti dünyada ən yaxşılarındandır. Vahid dövlət siyasətinə əsaslanan Azərbaycanın milli təhlükəsizliyinin təmin olunması istiqamətləri gücləndirilib və bununla bağlı aidiyyəti orqanlar bir-birini qarşılıqlı surətdə operativ məlumatlandırır. Bu mənada, nə Fransa, nə də digərlərinin agentura şəbəkəsinin Azərbaycana münasibətdə hərəkət imkanı var.

B.Məhərrəmov qeyd edib ki, Fransa son çarəni öz daxilində Azərbaycana münasibətdə radikal davranışlarda görür: "Evian şəhərində Azərbaycan parkında Azərbaycana aid yazı və əlaqəli simvolların yığışdırılması, Xurşidbanu Natəvana qoyulmuş abidəyə dövlət rəsmiləri tərəfindən vandal çağırışlar Fransanın əsl mahiyyətini göstərir. Özünü Avropada elmin, mədəniyyətin, incəsənətin himayəçisi kimi təqdim edən, hətta BMT-nin Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO-nun mənzil qərargahını belə bu ad altında Parisdə yerləşdirməyə nail olan Fransa, əslində, mahiyyətcə vandal dövlət olduğunu, siyasi məqsədləri naminə, mədəni dəyərləri, sənət nümunələrini belə yerlə yeksan etməyə hazır olduğunu göstərir. Əlbəttə, 2017-ci ildə Evian şəhərinə qoyulmuş Natəvanın abidəsinin götürülməsi, yaxud şəhər parkındakı Azərbaycan adının silinməsi ilə biz nəyisə itirməyəcəyik. Amma Fransa Azərbaycanla hazırkı davranışlarına görə çox şey itirəcək".




***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Fransa səriştəsiz siyasəti ilə özünü ifşa edir

Emmanuel Makronun adının Fransa tarixinə uğursuzluq gətirən prezident kimi düşəcəyi şübhəsizdir. Onun hakimiyyətə gəlməsi ilə Fransanın qaynar qazana dönməsi bir oldu. Fransa prezidentinin yarıtmaz siyasətinə etiraz edən yüz minlərlə insan tez-tez küçələrə çıxıb kütləvi etirazlar edirlər.

Ölkənin əsas şəhərlərini tətillər bürüyür. Əhali ilə polis arasında toqquşmalar, qarşıdurmalar baş verir. Demokratiyanın "beşiyi", Avropanın mərkəzində haqlarını tələb etdiyinə görə minlərlə nümayişçi polis zorakılığı ilə üzləşərək həbs edilir. Xatırladaq ki, etirazçıların tələbləri heç də sosial-iqtisadi məsələlər deyil, həm də siyasi xarakter daşıyır...

Öz ölkəsində vətəndaş hüquqlarını heçə sayan, əhali ilə polis dəyənəklərinin dili ilə danışan Makron isə utanıb qızarmadan özünü Fransa prezidentindən çox Ermənistanın vəkili kimi tanıtdırmağa çalışır. Beynəlxalq təşkilatlarda çıxışları zamanı guya ölkəmizi insan hüquqlarını pozmaqda, ermənilərə qarşı ədalətsizlikdə ittiham edir.

2020-ci ilin Vətən müharibəsində Ermənistanın rüsvayçı məğlubiyyəti həm də çoxillik Qarabağ problemi dövründə "vasitəçilik missiyası" ilə məşğul olan Fransanın əsl simasını da çılpaqlığı ilə göstərdi... Təmsil etdiyi dövlətin beynəlxalq təşkilatlardakı hüquqi mövqeyindən istifadə edərək Azərbaycana qarşı təzyiq etməyə çalışan Makronun hər cəhdi uğursuzluqla nəticələndi. Hər uğursuzluq da onun Azərbaycana olan kinini, nifrətini, qəzəbini bir qədər də artırdı. Emmanuel Makronun səriştəsizliyi, yarıtmaz siyasəti Fransa kimi bir dövləti çətin vəziyyətə salıb. Makronun hikkəsi və naşılığı ucbatından Cənubi Qafqaz siyasətində oyundankənar vəziyyətə düşən Fransa Afrika ölkələrindən də tamamilə sıxışdırılıb çıxarılmaqdadır...

Siyasi masalarda Azərbaycana uduzan Fransa kiçik bacısı Ermənistan kimi "oyunu" siyasi əxlaq normalarından kənar, namərdcəsinə qurmağa üstünlük verir. Belə ki, planlarını ölkəmizdə casus şəbəkəsi yaratmaqla, məkrli niyyətini həyata keçirmək istəyir.

Ölkəmizdə geniş agentura şəbəkəsi yaratmağa cəhd edən Makron hökumətinin bu arzusu da çiçək açmadan ürəklərindəcə dəfn olundu. Mətbuatdan məlum olduğu kimi, Azərbaycan DTX Fransanın ölkəmizdəki geniş rezidentura şəbəkəsini ifşa etdi.



Təsadüfi deyil ki, Fransa prezidenti Emmanuel Makron (DGSE) Xarici Təhlükəsizlik Baş İdarəsinin direktoru Bernar Emyeni vəzifəsindən azad edib.

O, 2007-2010-cu illərdə Fransanın Türkiyədə, 2010-2017-ci ilə qədər Fransanın Əlcəzairdəki səfiri işləyən Emyeni həm Yaxın Şərqi, həm də Afrikanı tanıyan təcrübəli kadr kimi təqdim edilirdi. Eks-prezident Nikola Sarkozinin Türkiyənin Aİ üzvlüyünə qarşı çıxması ilə iki ölkə arasında münasibətlərin gərginləşdiyi bir vaxtda Ankarada səfir işləyən Bernar daha çox Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsi üçün insanların cəlb edilməsi işinə rəhbərlik edən şəxs kimi tanınır. Ömrünü "diplomatik fəaliyyətə həsr edən" Bernar Emyeni 2017-ci ildə Fransa Xarici Kəşfiyyat İdarəsinin başına Emmanuel Makron özü gətirmişdir. Fransanın Afrika və Cənubi Qafqaz siyasətində uğursuzluqlarından sonra onun vəzifədən getməsi haqqında söhbətlər xeyli aktuallaşmışdır. 2023-cü ilin avqustunda E.Makron Fransa xarici kəşfiyyatının rəhbərinə qarşı narazılığını ifadə etməsi heç də təsadüfi deyildi. Səbəb B.Emyenin fəaliyyətinin Afrika və Şərqi Avropadakı mövqelərinə sarsıdıcı zərbə vurması, Cənubi Qafqaz siyasətindən Fransanın təcrid olması idi.

Azərbaycan DTX-nin Fransanın ölkəmizdə yaratdığı rezidentura şəbəkəsini ifşa etməsi ilə Fransa prezidenti Emanuel Makron Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyeni vəzifəsindən azad etmək barədə tərəddüdlərə son qoyaraq qərar vermək məcburiyyətində qaldı.

Emmanuel Makronun rəhbərliyi ilə Fransa bu gün özünün ən ağır günlərini yaşamaqdadır. Ölkəsini idarə etməkdə naşılıq edən birinin dünyada gedən proseslərə özünü orbitr kimi pərçim etmək niyyəti acı istehza doğurur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
## *açıq tenderə dəvət edir*

**Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən Sabirabad DOST Mərkəzinin binasının inşası üzrə söküntü, tikinti və müxtəlif təchizat işlərinin satın alınması**

Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Açıq tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs - Sudabə Qocayeva (0125255026 #91036).

**İştirak haqqı: Lot üzrə 2500 (iki min beş yüz ) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**

**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi;*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir. Notarial təsdiq satınalma elanının yerləşdirildiyi tarixdən sonra olmalıdır);*
4. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
6. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);*
7. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə mənfəət (gəlir) vergisinin bəyannaməsi (Dövlət Vergi Xidməti tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır. Notarial təsdiq satınalma elanının yerləşdirildiyi tarixdən sonra olmalıdır);*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Arayış satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Arayış Dövlət Statistika Komitəsindən alınmalıdır və son hesabat ilinə olan vəziyyəti əks etdirməlidir. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır. Notarial təsdiq satınalma elanının yerləşdirildiyi tarixdən sonra olmalıdır);*
10. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (Rəhbər şəxsin təyin olunması barədə əmr və ya qərarın surəti PDF formatında yerləşdirilməlidir. Notarial təsdiq satınalma elanının yerləşdirildiyi tarixdən sonra olmalıdır);*
11. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (Yüklülük arayışı satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);*
12. *İddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Arayış Daxili İşlər Nazirliyindən və ya ASAN Xidmət Mərkəzlərindən alınmalı və satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır);*
13. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması:*

- *İddiaçı tərəfindən müvafiq sahədə peşəkarlığın və təcrübənin mövcudluğu barədə təsdiqedici sənədlər, büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri təqdim edilməlidir;*
- *İddiaçı ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədləri təqdim etməlidir. O cümlədən, iddiaçı ilə qüvvədə olan əmək müqaviləsinə malik azı 1 nəfər sahə rəisi, inşaat mühəndisi, iş icraçısı, usta briqadir və topoqraf olmalıdır (ali təhsil barədə diplom, əmək kitabçası, əmək müqaviləsi bildirişi altsistemindən çıxarış, əməkdaşların müvafiq sahə üzrə azı 10 il ümumi və azı 5 il xüsusi iş təcrübəsi barədə müvafiq təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *İddiaçının hesabında sərbəst vəsait və ya kredit imkanı ən azı 3000000,0 manat olmalıdır (Kredit xəttinin açılması barədə bank tərəfindən verilmiş arayışda bu satınalma predmeti üzrə layihənin yerinə yetirilməsi məqsədilə 3000000,0 manat vəsaitin konkret ayrılmasının mümkünlüyü barədə arayış verilməlidir);*
- *İddiaçının son 3 (üç) il (2020-2022) ərzində tikinti, quraşdırma və əsaslı təmir işləri üzrə maliyyə dövriyyəsi azı 15 000 000,00 (on beş milyon) manat olmalıdır;*
- *İddiaçı son 3 (üç) il ərzində sahəsi minimim 5000 $m^2$ olan 1 tikinti obyektinin tikintisini və əsaslı təmir işlərini həyata keçirməlidir. Həyata keçirilmiş əsaslı təmir işləri müasir üslubda müxtəlif dizayn elemetlərini (laminat, mərmər üzləmə və sair) özündə əks etdirməlidir (Müvafiq müqavilə, layihə və işin yekun nəticələrini əks etdirən foto görüntülər, həmçinin rəylər təqdim edilməlidir);*
- *İddiaçı tərəfindən maddi texniki bazası, o cümlədən icarəyə götürdüyü avadanlıqlar (Ekskavator, traktor, yük maşınları, kranlar və s.) barədə geniş məlumat (Müvafiq təsdiqedici sənədlər ilə birlikdə) təqdim edilməlidir.*

14. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmalıdır (texniki tapşırıqda tələb olunan bütün sahələr üzrə).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Satınalan Təşkilata ünvanlaya bilərlər. Satınalma proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.02.2024-cü il saat 11:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **13.02.2024-cü il saat 11:00** tarixinə qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **14.02.2024-cü il saat 11:00** tarixində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyində (Ünvan: Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, 86) açılacaqdır.

***Tender komissiyası***


## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən **Stolüstü pul dəstləyən və pulun həqiqiliyini yoxlayan (detektor) avadanlıqların satın alınması** prosedurları çərçivəsində keçirilmiş kotirovka üzrə Satınalmalar komissiyasının 23.11.2023-cü il tarixli qərarına əsasən "Halal-P" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# İndi də hədəf Serbiyadır

## "Rəngli inqilab" ssenarisinin müəllifləri bu ölkədə aranı qarışdırmağa başlayıblar

Son günlər Serbiyada baş verən iğtişaşlar indiyədək bir çox ölkələrdə sınaqdan çıxarılan "rəngli inqilab" ssenarisinin tərkib hissəsidir. Prezident Aleksandar Vuçiç ölkədə dövlət çevrilişinə cəhd edildiyini açıqlayıb. O, Belqradda baş verən iğtişaşları qanuni yolla seçilmiş hökuməti devirmək cəhdi hesab edir.



"Pink" TV-yə müsahibə verən dövlət başçısı müxalifətin hökumət institutlarını ələ keçirmək niyyətindən danışıb. Vuçiç etirazçıların hakimiyyət orqanları seçkilərində saxtakarlıq ittihamlarını rədd edib. Serbiya Prezidenti onları açıq-aşkar yalan adlandırıb.

"Xaricdən göndərilən "quldurlar" ölkədə sabitliyi pozmağa çalışırdılar. Onların cəhdi uğursuzluğa düçar oldu", - deyən Vuçiç vurğulayıb ki, bu, inqilab deyil.

Serbiya liderinin fikrincə, bir çoxları Belqradın anti-Rusiya sanksiyalarına qoşulmasında israr edərək Serbiyaya öz iradələrini yeritməyə çalışırlar, lakin Serbiya müstəqil siyasət yürütməyə davam edəcək: "Onlar Serbiyanı zəif görmək istəyirlər ki, əvvəllər olduğu kimi iplə idarə olunacaq oyuncaq kimi idarə etsinlər - hökuməti və nazirləri seçə bilsinlər, hansı siyasətin həyata keçiriləcəyinə qərar versinlər, faksla və ya telefonla əmrlər versinlər ki Rusiyaya qarşı sanksiyalar tətbiq edin. Amma biz öz siyasətimizi aparmaq istəyirik".

Vuçiç daha sonra bildirib ki, hüquq-mühafizə qüvvələri iğtişaşçılara zərər verməməyə çalışıb və məhdud dərəcədə güc tətbiq ediblər. Xüsusi təyinatlılar nümayişçiləri gözyaşardıcı qazla dağıdıblar. Qarşıdurma zamanı iki polis yaralanıb, 30-dan çox etirazçı saxlanılıb.

Xatırladaq ki, etirazın təşkilatçısı olan "Serbiya Zorakılığa Qarşı" koalisiyası parlament seçkilərində cəmi 23 faiz səs toplayıb.

Qərb Serbiyanı Kosovonun müstəqilliyini tanımağa məcbur etmək istəyir. Oktyabrda Fransa, Almaniya liderləri açıq şəkildə Belqradı Kosovonu tanımağa çağırmışdılar.

ABŞ Beynəlxalq İnkişaf Agentliyi - USAİD-in vasitəsilə həyata keçirilən xüsusi proqramlar göstərir ki, Qərbin diktəsini yerinə yetirməyən ölkələrdə iğtişaşlar törətmək, loyal hakimiyyətlərin qurulmasına nail olmaq cəhdləri artıq ənənə halına çevrilib. Vaşinqtonun tanınmamış Kosovo və Metohiya məsələsindən əl çəkmədiyi isə regiona külli miqdarda çirkli pulların göndərildiyini nümayiş etdirir. Bölgəyə 12 milyon dollar xərclənməsi planlaşdırılan layihə bu pulu köçürmək və hərbi məqsədlər üçün istifadə etməkdən ötrü sadəcə maskadır.

"Müstəqil Kosovo" əvvəlcə ABŞ layihəsi olub və uzun müddətdir ki, oraya pul yatırdılır. Kosovo və Metohiya ərazisində NATO-nun nəhəng bazası tikilib. Sonra iqtisadiyyatın, ordunun inkişafına, silah-sursatın alınmasına və digər məqsədlərə pul ayırmağa cəhdlər olub.

ABŞ Beynəlxalq İnkişaf Agentliyi digər ölkələrə qeyri-hərbi yardım göstərmək üçün de-yure cavabdeh olan Dövlət Departamentinin strukturudur. Rusiya ərazisində struktur rəsmi olaraq 1992-2012-ci illərdə fəaliyyət göstərib.

11 il əvvəl Moskva USAİD-i Qafqazda siyasi manipulyasiyada ittiham etmiş və təşkilata onun Rusiya Federasiyasındakı fəaliyyətini məhdudlaşdırmağın zəruriliyi barədə məlumat vermişdi. Bədnam agentlik postsovet məkanındakı bəzi ölkələrdə fəaliyyətini davam etdirir.

Eyni siyasəti ABŞ və Qərb ölkələri vaxtilə Ukraynada həyata keçiriblər və hazırda bu ölkəni faktiki olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoyublar. Ukraynaya bütün növ silah göndərmək və maliyyələşdirməklə Rusiya ilə müharibədə qalib gələcəklərinə əmin ediblər. Yüz minlərlə insanın həlak olmasından, əlilə çevrilməsindən, Ukraynanın hərbi və mülki strukturu ciddi zərər çəkdikdən, torpaqları işğala məruz qaldıqdan sonra isə Kiyevə sülh danışıqlarına getməyi təklif edirlər...

Azərbaycanı da uzun illər ərazilərinin işğalı ilə barışmağa məcbur etmək istəyiblər, eyni ssenari ilə burada da çevriliş planları olub, amma bu baş tutmayıb. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın dərhal azad olunması ilə bağlı BMT-nin məlum qətnamələri 1993-cü ildən 2020-ci ilə kimi icra olunmayıb. ATƏT-in Minsk qrupu da 30 il ərzində heç bir nəticə əldə etməyib. Lakin Azərbaycan xalqı öz şanlı ordusu və müdrik rəhbərinin komandanlığı sayəsində tarixi Zəfər qazanıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Dünyada COVID-19-a yoluxma artıb

Son həftələr dünyanın bir sıra ölkələrində koronavirusa kütləvi yoluxma halları qeydə alınıb. Görünən odur ki, virus hələ uzun müddət həyatımızda olacaq.




Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, noyabrın 20-dən dekabrın 17-dək dünyada koronavirusa yoluxma halları əvvəlki dörd həftə ilə müqayisədə 52 faiz artıb. Bu dövrdə 854 min 673 yoluxma və 3 min 5 ölüm faktı qeydə alınıb.

ÜST-dən bildirilib ki, yoluxma və ölüm halları regionlar üzrə fərqlidir. Cənub-Şərqi Asiyada yeni koronavirus hadisələrinin sayı dörd həftə ərzində 388 faizdən, ölümlər isə üç dəfədən çox artıb. Afrikada xəstəlik 77 faiz artıb, ölüm halları 50 faiz azalıb. Avropada xəstəlik 54 faiz, ölüm halları 14 faiz yüksəlib. Eyni zamanda Amerika regionunda xəstələnmə 23 faiz, ölüm faktları isə 48 faiz azalıb.

### Azərbaycanda epidemioloji vəziyyət nəzarət altındadır

Koronavirusa yoluxma hallarının qeydə alındığı ilk ölkələr Sinqapur, İtaliya, Polşa və Avstraliyadır. Ən çox ölüm halı isə 510 nəfər olmaqla İtaliyada qeydə alınıb. Sonrakı yerlərdə İsveç, Rusiya, Avstraliya və Polşa qərarlaşıb.

COVID-19-la bağlı narahatedici məqamlardan biri ən çox yoluxmanın Azərbaycanla həmsərhəd olan Rusiyada qeydə alınmasıdır. Bu ölkədə təxminən 280 min yoluxma müəyyən edilib.

Hazırda Azərbaycanda epidemioloji vəziyyət nəzarət altındadır. Son həftələrin statistik göstəricilərinə nəzər yetirsək, həftəlik yoluxmanın 20 nəfəri ötmədiyini görürük. Yeni ştamlara ölkəmizdə rast gəlinməməsi sevindirici haldır. Lakin mütəxəssislər virusun 2024-cü ildə yox olmayacağını, bəşəriyyətin yeni ştamlara hazır olmalarını tövsiyə edirlər.

Həkim-infeksionist Aydan Sevizadə deyir ki, ölkəmizdə əhali arasında kollektiv immunitet formalaşıb: "Bu da xəstəliyin daha yüngül keçməsinə şərait yaradır. Beləliklə, səhiyyə sistemi, xəstəxanalar yüklənmir, insanlar ev şəraitində müalicə olunurlar. Bu uğurlu nəticədə peyvəndin rolu danılmazdır. İnsanların zamanında vaksinasiyadan keçməsi xəstələrdə simptomların ağırlaşmamasının, habelə ölüm hallarının kəskin azalmasının səbəbidir".

A.Sevizadə qeyd edir ki, COVID-19-un mutasiyaya uğramış ştamlarının əlamətləri qrip ilə, demək olar ki, eynidir: "Əlamətləri öskürək, boğaz ağrısı, ümumi halsızlıq, burun tıxanıqlığı və yüksək hərarətdir. Koronavirusla qripi yalnız laborator diaqnostika ilə fərqləndirmək mümkündür. Yuxarı tənəffüs yolları infeksiyalarının əlamətləri ilə müraciət edən və stasionar müalicəyə alınmış xəstələrdən götürülmüş testlərdə pozitiv nəticələrin aşkarlanması faktı çox azdır. Belə xəstələrin, adətən, qrip virusuna yoluxduqları müəyyənləşir".

### Bayramla əlaqədar yoluxma arta bilər

İnfeksionist bildirir ki, virusun qonşu ölkələrdə artdığını nəzərə alaraq, epidemioloji vəziyyətin kəskinləşməməsi üçün vətəndaşlara tədbirli olmağı tövsiyə edirik: "Çox təəssüf ki, insanlar tibbi maskadan, demək olar ki, tamamilə uzaqlaşıblar. Xəstə şəxslər belə, tibbi maskadan istifadə etmirlər. COVID-19-a, habelə respirator virus infeksiyasına yoluxmuş şəxslərin cərrahi maskalardan istifadəsi mütləq tövsiyə olunur. Virusa yoluxmuş xəstələr yalnız özlərini yox, ətrafdakıları da düşünməlidirlər".

A.Sevizadə deyir ki, şəxsi gigiyena qaydalarına əməl etməmək virusa yoluxmaq ehtimalını artırır: "Bayramla əlaqədar olaraq ölkələrarası səyahətlərin, insanlar arasında təmasların artması yoluxma hallarının çoxalmasına səbəb ola bilər. Virusun yayılmasının qarşısını yalnız birgə səylər nəticəsində ala bilərik. İnsanlar sosial məsafəni qorumalı, gün ərzində gigiyena qaydalarına riayət etməlidirlər. Payız-qış mövsümündə immunitetin aşağı düşdüyünü nəzərə alaraq gündəlik qida rasionuna və mövsümə uyğun meyvə-tərəvəzin qəbul edilməsinə xüsusi diqqət yetirilməlidir".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN»**
**qəzetinin reklam xidməti**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi Cəlilabad Rayon Məhkəməsinin sədri Vüsal Cəbrayılova atası

**ADİL CƏBRAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az



**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3417**

**Qiyməti 40 qəpik**